QARABAĞ AZƏRBAYCANDIR!

SƏS

№ 022 (6705) 7 fevral
2023-cü il. Qiymәti 60 qәpik


## Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı qardaş Türkiyə xalqına başsağlığı verib

3


YENİ AZƏRBAYCAN PARTİYASI
MƏRKƏZİ APARAT

Qardaş Türkiyədə baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbəri dərin təəssüf və kədər hissi ilə qarşıladıq.

Bu faciə ilə əlaqədar həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verir, yaralananlara isə Allahdan şəfa diləyirik.

Təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını ümid edir, hər zaman sevincimizin və kədərimizin bir olduğu dost və qardaş Türkiyənin yanında olduğumuzu qətiyyətlə bildiririk.

# Cənub Qaz Dəhlizi:

## Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu




5

# Azərbaycan daima səninlədir Türkiyə!



2

## Türkiyəyə ilk yardımı Azərbaycan edib



"Türkiyənin zəlzələ baş vermiş bölgələrinə ilk kömək Azərbaycandan gəlib". SİA xarici mətbuata istinadən xəbər verir ki, bu barədə "Haber Global"ın hazırladığı verilişdə qeyd edilib.

Bildirilir ki, Azərbaycan Fövqəladə Hallar Nazirliyi bütün heyətə "Hazır olun" əmrini verib, "xilasedicilər Azərbaycandan Türkiyəyə gəlirlər".

*Ləman Əlizadə*

## Gənclərə örnək olan cəsurluq və ərənlik məktəbi: MÜBARİZ İBRAHİMOV



6

## "Vergi güzəştləri media subyektlərinə öz biznes layihələrini həyata keçirməyə imkan verəcək"



3

## "Qərbi azərbaycanlıların tarixi torpaqları Qərbi Zəngəzurdan başlanır"



9

## Amulinin "qeyrəti", yoxsa..?



11

# Azərbaycan daima səninlədir Türkiyə!

## Prezident İlham Əliyev: "Türkiyədə zəlzələ nəticəsində insan tələfatı barədə xəbər Azərbaycanı sarsıdıb"



***Tarixin sınaqlarından şərəflə çıxan Türkiyə-Azərbaycan qardaşlığı dünyaya nümunədir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, biz bütün məsələlərdə bir yerdəyik. Bu gün dünya çapında ikinci belə ölkələr tapılmaz ki, bir-birinə bu qədər yaxın olsun. Həm etnik köklər, mədəniyyət, tarix və həm də ortaq maraqlar baxımından da Azərbaycan və Türkiyə daim bir yerdədir. Məlum olduğu kimi, fevralın 6-da Türkiyədə baş verən zəlzələ xalqımızı çox sarsıtdı. Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığı zamanı söyləyib ki, çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbər Azərbaycanı çox sarsıtdı və kədərləndirdi.***



### AZƏRBAYCAN VƏ TÜRKİYƏ HƏR ZAMAN BİR-BİRİNİN YANINDADIR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib. Dövlətimizin başçısı Türkiyədə baş vermiş zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılarla bağlı xəbərin Azərbaycanı çox sarsıtdığını və kədərləndirdiyini dedi. Prezident İlham Əliyev zəlzələ zamanı həlak olanlarla bağlı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana, onların ailələrinə və qardaş Türkiyə xalqına şəxsən öz adından və xalqımız adından başsağlığı çatdırdı, yaralananların tezliklə şəfa tapmasını dilədiyini bildirdi. Azərbaycan Prezidenti qeyd etdi ki, bu, böyük fəlakətdir və ölkəmiz Türkiyənin bu dərdinə şərik çıxır. Azərbaycan və Türkiyə hər zaman bir-birinin yanındadır. Dövlətimizin başçısı dedi ki, onun tapşırığına əsasən, 420 nəfərdən ibarət xilasedici heyət artıq qardaş ölkəyə göndərilib və hadisə yerinə çatan kimi Türkiyədən olan həmkarları ilə birlikdə dərhal fəaliyyətə başlayacaq. Prezident İlham Əliyev vurğuladı ki, ehtiyac duyulan ləvazimatlarla bağlı yardım da yaxın vaxtlarda qardaş ölkəyə yola salınacaq.

Rəcəb Tayyib Ərdoğan zəngə və başsağlığına görə dərin təşəkkürünü bildirdi. Türkiyə Prezidenti bu qardaş dəstəyinə görə dövlətimizin başçısına və Azərbaycan xalqına minnətdarlığını ifadə etdi. Qeyd edək ki, Birinci vitse-prezident Mehriban xanım Əliyeva fevralın 6-da Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edib. Mehriban xanım Əliyeva paylaşımında qeyd edib: "Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladım. Allah faciə zamanı həlak olanlara rəhmət eləsin. Onların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayıram. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!".

### ŞAD GÜNDƏ DƏ, DAR GÜNDƏ DƏ HƏMRƏY OLAN QARDAŞLAR

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları tarixin ən dar məqamlarında, ən çətin günlərində belə öz sözünü deyir. Azərbaycan dövləti bu çətin günlərdə Türkiyənin yanındadır vədehşətli zəlzələnin acı nəticələrinin aradan qaldırılmasında öz yardımını edir. Göründüyü kimi, biz Türkiyə ilə bir millət, iki dövlətik, sevincimiz də, kədərimiz də eynidir. Azərbaycan xalqı olaraq hər zaman qardaş Türkiyənin yanındadır və bundan sonra da olacaq. Çünki Azərbaycan-Türkiyə birliyi əbədi və sarsılmazdır. Qırx dörd günlük İkinci Qarabağ müharibəsində bu birliyin ən yüksək zirvədə olduğunu bir daha gördük. Eyni zamanda, iki dost, qardaş ölkə arasında müttəfiqlik sənədinin 15 İyun - Milli Qurtuluş Günündə Qarabağımızın tacı, musiqi beşiyimiz Şuşada imzalanması dünyaya bu birliyin, həmrəyliyin gələcəyi ilə bağlı bir çox məqamları çatdırdı. Vətən müharibəsində dünyaya "Azərbaycan tək deyil" mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşadan "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür" bəyan etdi.Və bu 44 günlük İkinci Qarabağ müharibəsinin Qələbə Zəfərində iki qardaş birliyi - İlham Əliyev-Rəcəb Tayyib Ərdoğan - "Bir millət, iki dövlət" birliyini nümayiş etdirdi. Dövlət başçımız bu birlikdən qürur duyduğunu söylədi: "Biz də bu qədər möhtəşəm dostumuz olduğu üçün qürurlu və şadıq".

### BU BİRLİYİ İSƏ HEÇ BİR QÜVVƏ SINDIRA BİLMƏZ!

Budur qardaş dayağı, budur çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti. Doğrudur, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbacanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra bilməz! Göründüyü kimi, bütün bunlar bir daha xalqlarımız arasındakı dostluq, qardaşlıq münasibətlərinin daha da möhkəmlənməsindən, onun sarsılmazlığından xəbər verir. Bir sözlə, bu gün Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq bütün sahələrdə sübuta yetirilməkdədir. Tezliklə, qardaş Türkiyə bu sınaqdan da üzüağ çıxacaq, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə də iki qardaş dövlət həmişə bir-birinin yanındadır. Dövlət başçımızın dediyi kimi: "Bütün dünyaya göstərdi ki, Türkiyə-Azərbaycan birliyi sarsılmazdır və ağır günlərdə biz bir-birimizin yanındayıq".



***RƏFİQƏ KAMALQIZI***



## Birinci vitse-prezident Mehriban Əliyeva Türkiyə xalqına başsağlığı verib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva fevralın 6-da Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edib.

AZƏRTAC xəbər verir ki, Mehriban xanım Əliyeva paylaşımında qeyd edib: "Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladım. Allah faciə zamanı həlak olanlara rəhmət eləsin. Onların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayıram. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!".

# “Heydər Əliyev İli” çərçivəsində Dənizkənarı Milli Parkda konsert proqramı təşkil olunub







**Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü il ölkəmizdə ”Heydər Əliyev İli” elan edilmiş və bununla bağlı zəngin və çoxşaxəli tədbirlərin, o cümlədən Heydər Əliyev irsinin öyrənilməsi və gənc nəslə aşılanması məqsədilə müxtəlif tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş ”Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nın icrası ilə əlaqədar Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının, ”Azərbaycan Televiziyası və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2023-cü il üçün birgə Tədbirlər Planı hazırlanarkən də sağlam gəncliyin inkişafı, ”Heydər Əliyev İli” çərçivəsində Ulu Öndərin zəngin irsinin və əbədiyaşar ideyalarının gənc nəslə aşılanması vəzifələri önə çəkilmiş, bu məqsədlə bir sıra idman növü üzrə yarışların, mədəni-kütləvi konsert proqramlarının təşkili nəzərdə tutulmuşdur.

Tədbirlər Planına uyğun olaraq fevralın 5-də yeniyetmə və gənclər arasında milli-mənəvi dəyərlərin təbliğ olunması, sağlam və narkomaniyadan uzaq gəncliyin formalaşmasına töhfə verilməsi üçün Dənizkənarı Milli Parkda konsert proqramı keçirilmişdir. Konsert proqramında tanınmış gənc ifaçılar çıxış etmişlər.




# Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı qardaş Türkiyə xalqına başsağlığı verib

**Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı qardaş Türkiyədə baş vermiş zəlzələ nəticəsində insanların həlak olması ilə əlaqədar başsağlığı verib və yaralananlara şəfa diləyib.**

Partiyanın rəsmi tvitter və feysbuk hesablarında paylaşılan başsağlığında qeyd edilib: ”Qardaş Türkiyədə baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbəri dərin təəssüf və kədər hissi ilə qarşıladıq. Bu facié ilə əlaqədar həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı verir, yaralananlara isə Allahdan şəfa diləyirik. Təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını ümid edir, hər zaman sevincimizin və kədərimizin bir olduğu dost və qardaş Türkiyənin yanında olduğumuzu qətiyyətlə bildiririk”.

# “Vergi güzəştləri media subyektlərinə öz biznes layihələrini həyata keçirməyə imkan verəcək”

**Media subyektlərinə vergi güzəştlərinin tətbiq edilməsi gələcəkdə media subyektlərinə daha çevik və reallığa uyğun öz iqtisadi və biznes layihələrini həyata keçirməyə imkan verəcək. SİA-nın məlumatına görə, Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünən keçirilən iclasında Medianın İnkişafı Agentliyinin (MEDİA) icraçı direktoru Əhməd İsmayılov bildirib. Onun sözlərinə görə, bu güzəştlər eyni zamanda media subyektlərinin inkişafı və jurnalistikanın peşəkarlığının artırılmasına imkan verəcək: ”Hazırda media reyestrindən olan subyektlərlə sıx işlər aparılır”.**

Vergi Məcəlləsinə dəyişikliyə əsasən, media subyektlərinin onlara müvafiq dövlət qurumu tərəfindən verilən maddi yardımların gəlir vergisindən, mənfəət vergisindən və sadələşdirilmiş vergidən azad edilməsi təklif edilir. Layihədə media subyektlərinin (kütləvi informasiyanın dərc olunması və (və ya) yayımlanması olan fiziki (jurnalistlər istisna olmaqla) və ya hüquqi şəxslərin) öz fəaliyyətləri nəticəsində əldə etdikləri gəlirlərin, o cümlədən reklam gəlirlərinin gəlir vergisindən, mənfəət vergisindən və sadələşdirilmiş vergidən azad edilməsi təklif edilir. Dəyişikliklərdə həmçinin media subyektləri tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi əlavə dəyər vergisindən (ƏDV) azad edilməsi təklif edilir.



Məcəlləyə dəyişikliklər layihəsi qəbul ediləcəyi təqdirdə 2023-cü il yanvarın 1-dən tətbiq olunmaqla 3 il müddətində qüvvədə olacaq və audiovizual media subyektlərinə şamil olunmayacaq. Əhməd İsmayılov daha sonra bildirib ki, artıq redaksiyalardakı redaktorlar və şöbə müdirləri də media reyestrində jurnalist kimi qeydiyyata alınacaqlar. O bildirib ki, bununla bağlı MEDİA-nın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində görüşü keçirilib, məsələ həllini tapıb.

”Bu, ”Media haqqında” qanundakı problem deyil. Bu, media qurumlarının redaksiyada vəzifələri düzgün qeyd etməməsi ilə əlaqədardır. Çünki həmin reaksiyalarda texniki şöbələr də var ki, oranın əməkdaşları jurnalist deyil. Media Reyestrinə daxil olan məlumatlarda bu şəxslərin vəzifəsi şöbə müdiri kimi göstərilib. Həmin şöbə müdiri ipoteka üçün hər hansısa bir banka müraciət edəndə bank işçisi onun kim olduğunu bilmir və problem yaranır.

Biz bununla bağlı əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevə müraciət etdik və nazir, onun komandası bizə yol göstərdi, biz də problemi aradan qaldırdıq. Artıq redaktorlar və şöbə müdirləri də jurnalist kimi qeydiyyata alınacaqlar. Telekanallarda operator və digər texniki işçilər media reyestrində jurnalist kimi qeydiyyata alınmır. Qanunda yazılıb ki, media təmsilçisi başqadır, jurnalist başqa. Məsələn, televiziyalarda operator vəzifəsində işləyənlər media təmsilçisi ola bilər. Amma onlar jurnalist deyillər. Televiziya jurnalistlərinin sujet hazırlamasında onların da rolu var. Amma bu, jurnalist olmaq deyil. Ona görə də həmin şəxslər jurnalist kimi qeydiyyata alınmayacaq”.

Əhməd İsmayılov eyni zamanda diqqətə çatdırıb ki, Azərbaycanda media reyestrindən keçməyən media qurumu fəaliyyət göstərə bilməyəcək. O bildirib ki, Azərbaycanda fəaliyyət göstərən bütün media qurumları reyestrdən keçməlidir.

”Biz bununla bağlı media subyektlərinə 6 ay müddət müəyyən etmişik. Azərbaycanda media subyekti fəaliyyətini bəyan etməlidir. Fəaliyyətini bəyan etmək üçün də həmin qurum media reyestrindən keçməlidir. 6 ay müddətində hansısa media subyekti media reyestrindən keçmirsə, biz həmin qurumu aşkarlayıb onun barəsində məhkəməyə müraciət edəcəyik”, - icraçı direktor qeyd edib.

# Heydər Əliyev-100

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİASPORU

**"Əmin olduğumu bildirmək istəyirəm ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır, işğal olunmuş torpaqlar azad ediləcək, yerindən-yurdundan didərgin düşmüş qaçqınlar öz doğma torpaqlarına qayıdacaqlar. Təbiidir ki, bu sahədə beynəlxalq təşkilatlarla yanaşı, Azərbaycan diasporuna da böyük ehtiyacımız var". Ulu öndər Heydər Əliyevin bu fikirləri səsləndirdiyi Dünya Azərbaycanlılarının I Qurultayından tam 22 il ötür...**

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının "Şuşa İli"ndə Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşada keçirilən V Zəfər Qurultayında 2001-ci ildə keçirilmiş ilk qurultayı ilə bağlı fikirlərini deyib: "2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. "Buraya gələrkən 2001-ci ildə keçirilmiş ilk qurultayı xatırlayırdım. Bildiyiniz kimi, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə ilk qurultay 2001-ci ildə keçirilmişdir. Ulu Öndər dərin məzmunlu çıxışında, eyni zamanda, təbii ki, Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirmişdir və demişdir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək, işğal altında olan torpaqlar işğaldan azad ediləcək və Azərbaycan xalqı öz dədə-baba torpaqlarına qayıdacaqdır".



### BİZ - ULU ÖNDƏRİN DAVAMÇILARI BU SÖZLƏRİ GERÇƏYƏ ÇEVİRDİK

Dövlət başçısı bildirib ki, artıq Ulu Öndərin davamçıları bu sözləri gerçəkliyə çevirib: "Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik və V qurultaya hazırlıq işləri başlayarkən mənə məruzə edildi və mən dedim ki, bu qurultay mütləq Şuşada keçirilməlidir. Əminəm ki, qurultay iştirakçıları da buna çox müsbət yanaşıblar və böyük həvəslə Şuşaya, qədim Şuşaya, bizim mədəniyyətimizin paytaxtı olan Şuşaya gəlmişlər. Şuşa da öz doğmalarını bax, belə günəşli hava ilə qarşılayır və bu, bir daha onu göstərir ki, bura bizim tarixi torpağımızdır. Hətta təbiət, günəş də bizimlə həmrəydir. Qarabağ münaqişəsinin həll edilməsi Prezident kimi mənim üçün başlıca vəzifə idi. Vəzifəyə seçildiyim ilk gündən bu günə qədər bu məsələnin həlli və postmünaqişə dövrünün Azərbaycanın xeyrinə inkişaf etməsi mənim üçün başlıca vəzifədir və bütün güclər səfərbər edilmişdir. Biz hamımız - həm Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları bir nöqtəyə vururduq, bir hədəfə çatmaq üçün çalışırdıq".

### BİZ BÖYÜK XALQIQ VƏ HEÇ VAXT BU XALQ, AZƏRBAYCAN XALQI İŞĞALLA BARIŞMAQ FİKRİNDƏ DEYİLDİ

Prezident İlham Əliyev onu da bildirib ki, dövlət-ordu-xalq birliyinin, həmrəyliyinin gücü ilə Ulu Öndərimizin arzusunu gerçəkləşdirdik: "Mən deyirdim ki, biz hər birimiz hər gün bu müqəddəs günü yaxınlaşdırmalıyıq, öz əməyimizlə, işimizlə, hərə öz yerində və torpaqlarımızın işğaldan azad olunmasından daha vacib və ali vəzifə yox idi. Məhz buna görə ordu quruculuğu sürətlə aparılmışdır, buna görə Azərbaycan müasir orduya malik olmuşdur, buna görə gənc nəsil vətənpərvərlik, düşmənə nifrət, Vətənə sədaqət ruhunda tərbiyə olunurdu, buna görə iqtisadi islahatlar aparılmışdır. Bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq və bu günü görmək amalı durdu. Biz buna öz gücümüzlə nail olduq. Azərbaycan xalqı 30 il davam edən mənasız danışıqlar əvəzinə öz gücünü ortaya qoydu, ədaləti bərpa etdi, beynəlxalq hüququ bərpa etdi və bütün dünyaya sübut etdi ki, biz böyük xalqıq və heç vaxt bu xalq, Azərbaycan xalqı işğalla barışmaq fikrində deyildi. Mən dəfələrlə, o cümlədən birinci Qurultaydan sonra keçirilmiş Dünya Azərbaycanlılarının qurultaylarında çıxış edərkən deyirdim ki, biz heç vaxt bu işğalla barışmayacağıq, nəyin bahasına olursa-olsun öz dədə-baba torpaqlarımızı işğaldan azad edəcəyik... Biz təkcə Ermənistanla müharibə aparmamışıq. Biz təkcə dünya erməniliyi ilə müharibə aparmamışıq, biz Ermənistanın himayədarları ilə müharibə aparmışıq və bu müharibədə Qələbə qazanmışıq. Ona görə bu Qələbənin tarixi əhəmiyyəti daha böyükdür. Biz sübut etmişik ki, ölümə getməyə hazırıq, öldü var, döndü yoxdur. Müstəqillik dövründə vətənpərvərlik ruhunda yetişən gənclərimiz ölümə gedirdilər, bilərəkdən ölümə gedirdilər Vətən uğrunda".

### HEYDƏR ƏLİYEV - DÜNYA AZƏRBAYCANLILARININ TƏŞKİLATLANMASI VƏ DİASPOR QURUCULUĞUNDA

Ermənistanın təcavüzü və torpaqlarımızın işğalı dövrünə təsadüf edən həmin illərdə - 1993-cü illərdə ikinci dəfə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə gələn ulu öndər Heydər Əliyev beynəlxalq ictimaiyyətin ölkəmizin problemlərinə biganəliyi fonunda soydaşlarımızın dünyadakı səsimiz ola biləcəyinin gerçəyini təbliğ edərək bu istiqamətdə atılan addımları dövlət siyasəti xəttinə çevirdi. Ulu öndər Heydər Əliyev bütün görüşlərində onları yaşadıqları ölkəyə inteqrasiya ilə yanaşı tarixi Vətənlərini də unutmamağa, dünyada yaşayan azərbaycanlıları həmişə həmrəy olmağa və azərbaycançılıq ideologiyası ətrafında birləşməyə çağırış edirdi. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etdi. O gündən başlayaraq dünyada yaşayan azərbaycanlılar hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü qeyd edirlər. Ulu Öndər 31 dekabr tarixini bayram elan etməklə dünyada yaşayan azərbaycanlıların vətəninə bağlılığını daha da artırmış oldu. Onları birliyə, həmrəyliyə, Azərbaycanın köməyinə səslədi. Heydər Əliyev dünya azərbaycanlılarına müraciətində deyirdi: "Biz istərdik ki, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar həmin ölkələrin vətəndaşları kimi yaşasınlar. Ancaq heç vaxt öz milli köklərini, milli mənsubiyyətlərini itirməsinlər. Çünki bizi birləşdirən milli mənsubiyyətimizdir, tarixi köklərimizdir, milli-mənəvi dəyərlərimizdir... Vətənini, millətini sevən hər bir azərbaycanlı müstəqilliyimizin dönməzliyi üçün ciddi səy göstərməli, vətənimizin, respublikamızın taleyi hər bir soydaşımızın taleyi olmalıdır".

### AZƏRBAYCAN DİASPORUNUN İNKİŞAFINDA, BİRLİK VƏ HƏMRƏYLİK YOLUNDA YENİ MƏRHƏLƏ

Azərbaycan diasporu bu gün öz inkişafının birlik və həmrəyliyinin yeni, ən yüksək mərhələsini yaşayır. Azərbaycanın dövlət müstəqilliyinin onilliyində Ulu Öndər Dünya Azərbaycanlıların I Qurultayının keçirilməsinə qərar verdi və bu qurultay 2001-ci il noyabr 9-10-da baş tutdu. Qurultayın əsas məqsədi dünyada yaşayan azərbaycanlıları təşkilatlandırmaq və bir amal ətrafında birləşdirmək məqsədilə diaspor komitəsinin yaradılması məsələsini müzakirə etmək idi. Dünya Azərbaycanlılarının I Qurultayında 36 xarici dövlətdə yaşayan həmvətənlərimizin cəmləşdiyi 200-dən çox müxtəlif təşkilatı təmsil etməklə, 406 nümayəndə və 63 qonaq iştirak edirdi. Qurultay müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına ciddi təsir göstərdi. Həmin qurultayda Ulu Öndərin böyük iftixarla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı dillər əzbəri oldu. Ulu öndər Heydər Əliyev qurultayda dünya azərbaycanlıları həmrəyliyə çağıraraq demişdir: "Beynəlxalq təşkilatlarla yanaşı, Azərbaycan diasporuna da böyük ehtiyacımız var. Məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycan diasporu son illər təşkilatlanır və Azərbaycan icmaları, diasporu yaşadıqları ölkədə, ümumiyyətlə, beynəlxalq aləmdə artıq özlərini göstərirlər. Amma bu, bizim diasporun formalaşmasının ilkin mərhələsidir. Hamımız - siz də, biz də çox iş görməliyik ki, Azərbaycanın güclü diasporu yaransın. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar daha da güclənsinlər. İqtisadi cəhətdən daha da möhkəmlənsinlər, yaşadıqları ölkələrin ictimai-siyasi həyatında fəal iştirak edə bilsinlər. O ölkələrin həyatına öz təsirlərini göstərə bilsinlər".

2002-ci il iyulun 5-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" Fərman imzaladı və komitə dövlət qurumu olaraq dünyada yaşayan soydaşlarımızla işləməyə başladı. Diasporla İş üzrə Dövlət Komitəsinin qarşısında qoyulan əsas məsələ Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq, dünya azərbaycanlılarını daha sıx birləşdirmək və informasiya müharibəsindən qalib çıxmaqdır. Beləliklə, dövlətimizin düşünülmüş diaspor siyasəti nəticəsində xaricdəki həmvətənlərimizin daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoydu. 2016-cı il iyunun 3-4-də keçirilən Dünya Azərbaycanlıların IV Qurultayında dünya azərbaycanlıların qarşısında duran vəzifələrə toxunan Prezident İlham Əliyev qeyd edib: "Azərbaycan həqiqətlərini müxtəlif ölkələrə çatdırmaq üçün burada lazımi tədbirlərin görülməsi haqqında müzakirələr aparılmalıdır, proqram tərtib edilməlidir. Əgər Azərbaycan dövləti bu işdə hər hansı bir formada öz dəstəyini verə bilərsə, biz buna hazırıq. Əsas odur ki, biz bunu planlı şəkildə icra edək. Bu, Azərbaycanın diaspor təşkilatları olan bütün ölkələrdə bəlkə də birinci məsələ olmalıdır".

### ULU ÖNDƏRİN SÖZLƏRİNİ GERÇƏKLİYƏ ÇEVİRƏN QALİB LİDER!

8 noyabr, 2020-ci il - ŞUŞA AZADDIR! Bizə bu hissləri yaşadan Ali Baş Komandanımız İlham Əliyev və Azərbaycan torpaqlarının hər qarışının azad edilməsi uğrunda canından-qanından keçən rəşadətli əsgər və zabitlərimizdir. Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində dövlətimizin başçısı bütün diplomatik təzyiqlərə də sinə gələrək, mürəkkəb məsələlərin öhdəsindən uğurla, ləyaqətlə gəlməyi bacardı. Çünki Prezidentimiz xalqımızı oddan-alovlardan, məhv olmağın astanasından qurtaran Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev siyasətinin layiqli davamçısıdır. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" - deyən Ümummilli Liderin nə qədər dahi və uzaqgörən şəxsiyyət olduğu hər keçən gün sübut olunur. Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və iradəsi sayəsində işğalda olan bütün torpaqlarımızı, o cümlədən Qarabağın tacı Şuşanın nəyin bahasına olursa-olsun, düşmən tapdağından azad edəcəyinə əmin idi. Ulu öndərimizin dediyi kimi: "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur". Xalqımız artıq iki ildir ki, tarixi Qələbənin sevinci ilə yaşayır.

Bəli, 2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə Prezident İlham Əliyev 29 sentyabr 2022-ci il tarixində "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamı, məhz ulu öndərin Azərbaycanın ən yeni tarixinin 35 ilə yaxın dövründə Azərbaycan xalqı, dövlətçiliyimizin, müstəqilliyimizin qorunması və möhkəmləndirilməsi uğrunda yorulmaz fəaliyyətinə və misilsiz xidmətlərinə verilən yüksək dəyərdir. Və müstəqil Azərbaycanın memarı və qurucusu ümummilli lider Heydər Əliyevin ideyaları - Heydər Əliyev yolu - Prezident, Ali Baş Komandanımız Qalib Lider İlham Əliyev tərəfindən uğurla davam edir və bu yol dönməz və sarsılmaz yoldur. Çünki Prezident İlham Əliyev cənablarının dediyi kimi: "Əldə edilən hər bir uğurumuz Heydər Əliyevin xidmətləridir".

***RƏFİQƏ KAMALQIZI***




# Cənub Qaz Dəhlizi: Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolu

## İlham Əliyev: "Enerji təhlükəsizliyi həqiqətən milli təhlükəsizlik məsələsidir"

Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclaslarının açılışı Azərbaycanın artan nüfuzu və müasir beynəlxalq münasibətlər sistemində güclənən mövqeyinin daha bir göstəricisidir. Cənub Qaz Dəhlizi layihəsini dəstəkləyən və onun həyata keçirilməsində fəal rol oynayan bir sıra dövlətlərin təmsilçiləri ilə yanaşı, bu layihələrdə pay sahibləri olan transmilli şirkətlərin rəhbərləri də Məşvərət Şurasının toplantılarında iştirak edirdilər. Belə ki, tədbirlərdə Avropa İttifaqının, Türkiyə, İtaliya, ABŞ, Böyük Britaniya, Gürcüstan, Macarıstan, Rumıniya, Bolqarıstan, Yunanıstan, Albaniya, Moldova, Monteneqro, Serbiya, Ukrayna və Xorvatiyanın yüksək səviyyəli nümayəndələri iştirak ediblər. İclaslarda enerji şirkətlərindən SOCAR, BP, BOTAŞ, TANAP, TAP, TPAO, TAQA, Bulgargaz EAD, Bulgartransgaz, İCGB, Fluxys, ROMGAZ SA, SACE, Desfa, TotalEnergies, FGSZ Ltd, SNAM, Uniper, Petronas, ACWA Power, Masdar, Fortescue Future Industries, WindEurope, SolarPower Europe, maliyyə təsisatlarından isə Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Avropa Yenidənqurma və İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Asiya İnfrastruktur və İnvestisiya Bankı, Asiya İnkişaf Bankı və digər qurumlar təmsil olunub.

### "ENERJİ TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİNİN HƏR BİR ÖLKƏ ÜÇÜN ƏHƏMİYYƏTİ DAHA DA ARTIR"

Son illər Prezident İlham Əliyevlə birbaşa təmaslar Avropada Azərbaycan Liderini sözü və imzası bir olan şəxsiyyət kimi tanıdıb. Ölkəmizin sahibi olduğu sabitlik və təhlükəsizliyi dünya dövlətləri ilə qarşılıqlı əməkdaşlıq münasibətlərinin qurulmasında müstəsna rola malik olan amillərdir. Ölkəmiz müasir dövrdə Avropa dövlətlərinin müstəqillik və suverenliyinin ən vacib elementlərindən olan enerji təhlükəsizliyinin təminatçısı kimi mövqeyini getdikcə möhkəmləndirməkdədir. Enerji təhlükəsizliyi milli təhlükəsizlik məsələsi baxımından xüsusi önəm kəsb edir. Bu sahədə yeni marşrutların qurulması və yeni resursların cəlb olunması dövlətimizin başçısı tərəfindən diqqətdə saxlanılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda çıxışı zamanı "Cənub Qaz Dəhlizi Məşvərət Şurasının səkkizinci toplantısından sonra dünyada çox şey dəyişibdir", - deyərək toplantının bir il öncə burada keçirildiyini bildirib: "Dünya dəyişib, enerji təhlükəsizliyi məsələlərinin hər bir ölkə üçün əhəmiyyəti daha da artır və adətən görüşlərdə söylədiyimiz kimi enerji təhlükəsizliyi həqiqətən milli təhlükəsizlik məsələsidir. Yeni marşrutların qurulması və yeni mənbələrin cəlb olunmasına gəldikdə, bütün bunlar birgə səylərimizlə edilmişdir və indi görünür, bu, heç vaxt görünməmiş kimi vacibdir. Yaxşı haldır ki, biz hər bir şeyi vaxtında etdik, vaxt itirmədik. Baxmayaraq ki, Cənub Qaz Dəhlizi layihəsinin icrasında müəyyən yubanmalar oldu, lakin biz onu mümkün qədər tez başa çatdırmağa çox sadiq idik. İndi isə biz artıq onun genişləndirilməsi haqqında danışırıq".

Mötəbər toplantıda bir çox önəmli məsələlərə toxunulub. İki il bundan əvvəl istismara verilən Cənub Qaz Dəhlizi özünü və o cümlədən Avropanın enerji təhlükəsizliyində strateji əhəmiyyətini doğrultdu. 2022-ci ilin iyulunda Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması Cənub Qaz Dəhlizinin Avropa İttifaqının şaxələndirmə strategiyasının əsas komponenti kimi rolunun gücləndirilməsinə yol açır. "Bu gün biz artıq TANAP-ın 16 milyard kubmetrdən 30 milyard kubmetrə qədər genişləndirilməsini nəzərdən keçiririk və TAP-ın 10 milyard kubmetrdən 20 milyard kubmetrə genişləndirilməsi haqqında danışırıq. Bu, alternativ enerji mənbəyinə böyük ehtiyac duyulduğunu göstərir. Bu, enerji təchizatının davamlı şaxələndirilməsinin zəruriliyini nümayiş etdirir", - deyə Cənab Prezident bildirib.

### GƏLƏCƏK PLANLARIMIZ ÜÇÜN AYDIN YOL XƏRİTƏSİ

Cənub Qaz Dəhlizi, o cümlədən Azərbaycanda bərpaolunan enerji resurslarından istehsal edilmiş elektrik enerjisinin nəqli üçün dənizin dibi ilə çəkiləcək kabel və Avropa Komissiyasının dəstəklədiyi layihələr Avropa İttifaqı ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsinə nəzərəçarpan töhfə verəcək. Cənub Qaz Dəhlizi vasitəsilə ötürülən təbii qaz həcminin 2 dəfə artırılması, yaşıl enerji resurslarının istehsalı və Avropaya nəqli ilə bağlı intensiv şəkildə aparılan danışıqlar və imzalanan sənədlər Azərbaycanın enerji siyasətinin Avropa üçün xilas mənbəyi olduğunu göstərir. Ötən ilin iyulunda Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin ölkəmizə səfəri zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanan enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu əhəmiyyətə malikdir. "O əslində, gələcək planlarımız üçün aydın yol xəritəsidir" - deyən dövlətimizin başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış enerji sahəsində strateji tərəfdaşlıq haqqında sənədə uyğun olaraq, ölkəmizin qaz istehsalını 2027-ci ilədək artırmaq niyyətində olduğunu və Aİ-yə üzv ölkələr arasında qurulan interkonnektorlar vasitəsilə yeni bazarlara çıxış imkanlarının yarandığını diqqətə çatdırıb.

### "ÖLKƏ DAXİLİNDƏ ENERJİ SƏMƏRƏLİLİYİ ÜZƏRİNDƏ İŞLƏYİRİK"

Ölkəmizin bərpaolunan enerji sahəsində böyük resursların olduğunu vurğulayan dövlətimizin başçısı Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış sənədin də ölkəmizin bərpaolunan mənbələrdən əldə edilən elektrik enerjisinin Avropa bazarına çıxarılması üçün böyük perspektivlər vəd etdiyini bildirdi. Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində aparılan müzakirələr nəticəsində yeni təşəbbüslərin və ideyaların yaranacağına geniş imkanlar var. Hazırda Aİ məkanında enerji təhlükəsizliyi baxımından gərgin zamanda Azərbaycanın dəstəyi və yardımı yüksək qiymətləndirilir. Aİ Azərbaycanla təbii qaz, yaşıl enerji sahələrində əlaqələri genişləndirməkdə maraqlıdır və bu istiqamətdə də əməkdaşlığa hazırdır. Təbii qaz ixracı artaraq, 2021-ci ildə təxminən 19 milyard kubmetr, ötən il isə 22,6 milyard kubmetr olmuşdur. "Biz bu il onun 24,5 milyard kubmetr olmasını gözləyirik. Bu, o deməkdir ki, Avropa Komissiyası ilə Anlaşma Memorandumu uğurla icra olunur. Biz nəinki hasilatı, o cümlədən ixracı artırırıq və həmçinin onun coğrafiyasını genişləndiririk. Əminəm ki, layihəyə qoşulmuş ölkələr bu gün bunun faydasını artıq görürlər və görəcəklər", - deyə Prezident qeyd edib. Bu gün enerji təhlükəsizliyi mühüm əhəmiyyət kəsb etdiyindən Avropa İttifaqı, Azərbaycan və tərəfdaş ölkələr enerji təhlükəsizliyinin və bazarda sabitliyin təmin edilməsində birgə çalışırlar. Azərbaycan Avropa qitəsi ölkələrinin milli təhlükəsizliyinin tərkib hissəsi olan enerji təhlükəsizliyinin təmin edilməsində vacib ölkədir və görülən işlər, keçirilən görüşlər Azərbaycanın dünya siyasətində yerini daha da möhkəmləndirir.

*Nəzakət ƏLƏDDİNQIZI*



# Başın sağ olsun, Türkiyə!

**MƏTANƏT**

Yaradanın dünyaya bəxş etdiyi gecə və gündüz rəngləri ilə fərqləndiyi kimi, hadisələrin başvermə vaxtı ilə də bir o qədər fərqlidir. Bu iki zaman kəsiyindən gündüz hadisələrin baş verməsi üçün gecədən xeyli əlverişlidir. Elə buna görə də deyirik ki, gecənin xeyrindənsə, gündüzün şəri yaxşıdır.

6 fevral gecəsi də Türkiyəyə heç də gözəl bir gündüz bəxş edə bilmədi. Gecənin yarısı insanları şirin yuxudan böyük bir fəlakət oyatdı. Kahramanmaraş vilayətinin Pazarcık rayonunun sakinləri 7,4 bal gücündə zəlzələ ilə, həm də bu fəlakətin bəxş etdiyi böyük çarəsizliklə üz-üzə qaldılar. Bu müdhiş gecə səhərə kədərli bir gündüz bəxş etdi.

Bütün Türkiyə səhər bu fəlakət xəbərini duydu və onu böyük kədərlə qarşıladı. Yenə də zəlzələ... Yenə də insan taleyi... Yenə də ölüm, dağıntı, itki, insanların düzəninin pozulması, evlərinin dağılması, dağıntılar altında qalanlar... Kədər, qəm və qüssə bir-birinə qarışdı.

Ölkəmiz Türkiyənin kədərinə ilk reaksiya verən ölkə oldu. Yəni başqa cür də ola bilməzdi. Çünki Türkiyə bizim qardaşımız, canımızdır. Bütün sevincli və kədərli günlərdə bu iki ölkənin bir-birinin yanında olması artıq ənənə halını alıb. Azərbaycan Türkiyəyə həm mənəvi, həm də maddi yardımını göstərdi. Xilasedicilər Türkiyəyə-dağıntılar altında qalan insanların həyatlarını xilas etməyə göndərdi. Həyat belədir. Biz insanlar bəzən hansı hadisələrlə qarşılaşacağımızı ağlımıza belə gətirə bilmirik. Bir də baxırıq ki, həmin hadisənin içərisindəyik. Ya onun zərbələrini, ya kədərini, ya da ağrılarını yaşayırıq.

Ötən gecənin yarısı Türkiyədə baş verən fəlakətin nə olduğunu təxmin edənə qədər kimi həyatını itirdi, kimi dağıntıların altında qaldı, kimi də hələ də nə baş verdiyi anlamağa çalışdı.

Zəlzələnin Hatay, Adana, Qaziantep, Malatya, Kilis, Adıyaman, Diyarbəkir, Şanlıurfa və Osmaniye vilayətlərində də hiss olunduğu, ölən və yaralananların, dağıntıların olduğu bildirilir. 7,4 bal gücündəki zəlzələnin Misir, Livan, Suriya və İraqda da güclü hiss olunduğu bildirilir.

Biz də gecə yarıdan bu kədərli xəbəri kədərlə də qarşıladıq. Fəlakət, faciə, müharibə görmüş bir xalq kimi təbii fəlakətin də nə olduğunu çox yaxşı anlayırıq. O yerdə ki, insan itkisi var, yaralı var, ev-eşiyini itirən, ocağı dağıdılan, viranə qalan var, orada hər bir azərbaycanlının ürək ağrısı var, deməkdir. Çünki biz illərlə soydaşlarımızı itirmişik, evlərimizdən zorla çıxarılmışıq, yurdumuz dağıdılıb, viranə qalıb. Bundan böyük dərd, kədər, qəm-qüssə ola bilərmi yəni?

Hələ düşünəndə ki, biri var, təbii fəlakət nəticəsində yuxarıda sadaladıqlarımız ola, biri də var ki, insanlar bu faciələri bir-birinə yaşadalar, bax belə olanda, hadisə daha da kədərli olur. Çünki burada bir-birini öldürən, evini dağıdan, yurdunu boş qoyan gözəgörünməz bir qüvvə deyil, insanlardır.

Türkiyədə baş verən zəlzələnin də hələ təbiimi olduğunun, yoxsa süni şəkildəmi törədildiyinin araşdırılması hələ sonrakı mərhələdə olacaqdır. Əgər süni şəkildə yaradılıbsa, yenə də insanlığa təəssüflər olsun. Yox, əgər təbii şəkildə baş veribsə, bu, Allahın işidir ki, ona qarışmağa heç birimizin haqq yoxdur.

İnşallah, bütün dost və qardaş dövlətlər Türkiyəyə bu zəlzələnin nəticələrinin qısa bir zamanda aradan qaldırılması üçün əlindən gələni əsirgəməz. Heç olmasa evini, yuvasını itirən insanlar tez bir zamanda qışın bu soyuq günlərində daldalanmağa bir yer tapa bilərlər. Ümidvarıq ki, dostların və qardaşların köməkliyi sayəsində bütün bunlar qısa zamanda həyata keçiriləcəkdir. Türkiyənin kədəri Azərbaycanın kədəridir. Allah həyatını itirən bütün türk bacı və qardaşlarımıza rəhmət eləsin. Başın sağ olsun, Türkiyə!

# Gənclərə örnək olan cəsurluq və ərənlik məktəbi: MÜBARİZ İBRAHİMOV



**Çoxəsrlik tarixinin şərəfli mərhələsini yaşayan Azərbaycan xalqı Qalib xalq olaraq dünyaya gücünü göstərmiş oldu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Milli Ordumuzun 27 sentyabr 2020-ci il tarixdən başlanan əks-hücum əməliyyatları nəticəsində 30 ilə yaxın mənfur qonşumuz Ermənistanın işğal altında saxladığı Qarabağı azad etməklə milli çağdaş tariximizə şanlı səhifə yazdı. Çağdaş tariximizə 44 günlük Vətən müharibəsi kimi daxil olan bu hərbi əməliyyat nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazi bütövlüyü təmin edildi. Minlərlə vətən oğlu şəhidlik zirvəsinə yüksəldi.**

Bu zirvəyə yüksəlmək hər kəsə nəsib olmur. Torpaq yolunda can fəda etmək, bu torpağın vətəndaşı olaraq onun yaddaşına hopmaq, qanı ilə vətən torpağına can vermək böyük hünər, qəhrəmanlıq, şücaətdir. Əlbəttə ki, torpaq belə övladlarını qoynuna alarkən qürurlanır. Qürurlanır ki, belə övladlar yetişdirib, onun hər qarışını qan ilə suvarılır. Minlərlə vətən oğlu düşmənə yerini göstərmək üçün, qisası qiyamətə qoymamaq amalı ilə silahlanıb düşmənə qorxaq və gücsüz olduğunu sübut edərək şəhid oldular. 44 günlük Vətən müharibəsində xalqımıza Zəfər tarixini yaşadan oğullarımız Qələbə tariximizi bizimlə qeyd etməsələr də, qalib xalqın övladı kimi məzarlarında rahat nəfəs alırlar. Bu gün Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü yolunda şəhid olmuş vətən övladlarının hər birinin qəhrəmanlıq tarixi dildən-dilə düşərək sanki əfsanəyə çevrilib. Elə Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimov kimi. Milyonların ürəyində heykəlini ucaldan xalqımızın Mübariz oğlu. Hər zaman xalqın yaddaşında, qəlbində olan bir qəhrəman. Gənclərə örnək, torpağımıza ucalıq gətirən Mübariz. Yaşasa idi, bu gün 35 yaşı olacaqdı. Vətən ucalığı, vətən sevgisi onun ömür yolunu yarımçıq qoydu. Qəhəmanlıq zirəsinə yüksəltdi. Heç vaxt zirvədən enməyəcək bir yüksəklikdə özünün əbədi məşəlini yandırdı - şəhidlik zirvəsinə yüksəldi. Özü də 22 yaşında. 22 bahar yaşamış bir insan üçün işıqlı ömür yolları olduğu halda seçimində qərarlı oldu. Hər dəfə işğal tariximizlə bağlı bir söz eşidəndə düşmənə qarşı nifrəti daha da artır. Deyirlər vətənpərvərlik ana laylalarından başlayır. Körpə böyüdükcə onun torpağa, elə-obaya bağlılığı yoğrulduğu ana laylalarından kök atmağa başlayır. Sonralar vətənə, doğma torpağa məhəbbət nağıllarımızdan, dastanlarımızdan, atalar sözlərindən əxz olunmağa başlayır. Vətənlə bağlı düşüncələri, vətənpərvərlik tərbiyəsi, vətəni sevmək kimi ali dəyərlər Mübarizi qəhrəman kimi yetişdirir - ərən, igid, mübariz. 22 yaşlı bir gəncin düşmənlə üz-üzə gələrək, qisası qiyamətə qoymaması onun ruhi, əqli, mənəvi dünyasında hökmranlıq edən Vətən sevgisindən köklənmişdi.

## ŞƏHİD OLSAM AĞLAMAYIN, SEVİNİN Kİ, O MƏRTƏBƏYƏ YUKSƏLDIM

Hər dəfə onun qısa, lakin neçə-neçə onilliklərə bərabər bir ömür yaşadığını görürük. Əsrlərə dastan olacaq bir ömür yaşadı. Neçə-neçə əsrlər bu əfsanəyə çevrilmiş ömür yolundan yazılacaq, qəhrəmanlığı dildən-dilə dolaşacaq. 1988-ci ilin 7 fevral tarixində Biləsuvar rayonunun Əliabad kəndində anadan olan Mübariz bir kəndin, bir rayonun yox, bütün türk dünyasının övladına çevrildi. Qısa ömürdən sətirlər oxuyuruq. 1994-cü ildə şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbinin 1-ci sinfinə daxil olaraq 2005-ci ildə orada orta təhsilini başa vurub. Həmin il həqiqi hərbi xidmətə çağrılıb. Əsgəri xidmətini Daxili Qoşunların "N" saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Bölüyündə keçirib. Həqiqi hərbi xidmətini 2007-ci ildə çavuş rütbəsində başa vurub. Bir müddət mülki işlərdə işlədikdən sonra 2009-cu ilin avqust ayında yenidən gizir rütbəsində hərbi xidmətdə çalışmağa başlayıb. Sonra öz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birində xidmət edib. Bu yola qədər uşaqlıq və gənclik illərinin ilk illərində baş verən hadisələr onun yaddaşına elə həkk olur ki, o düşməndən intiqam almaq hissi ilə yaşayır. Mübariz Qarabağ müharibəsi ilə həmyaşıd idi. 19 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində gizir Mübariz İbrahimov təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçir. Belə bir qətiyyətli addımı atarkən ailəsinə son məktubunu yazmağı şübhəsiz ki, özünə borc bilir: "Canım atam və anam. Məndən ötrü darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bolbol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam - ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim. Allaha ibadətlərinizi dəqiq yerinə yetirin. Çoxlu sədəqə verin. Seyid nəvəsi olaraq bunu etməliyəm. Allah böyükdür. Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin". Bu halallıqdan sonra qəhrəmanlığa doğru addımlarını atır. Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini gözlənilməz birinci həmlədə məhv edir. Sonra isə düşmənin öz silahlarından özünə qarşı istifadə edərək 5 saat onlarla təkbətək döyüşür. Düşməni ağır itkilərə məruz qoyur, onların zəif cinahlarını üzə çıxarır. Azərbaycan döyüşçüsü səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olur. Bu şəhidlik bütün Azərbaycana, dünya ölkələrinə işıq sürəti ilə yayılır. Atası Ağakərim İbrahimov belə deyir: "Hadisənin səhəri günü tezdən saat 5-6 arasında mənə zəng gəldi. Soruşdular ki, oğlunuz evə gəlməyib ki? Hətta bildirdilər ki, çoxlu silah götürüb və ərazidən uzaqlaşıb. Dedim, mən oğlumu tanıyıram, sərhədə tərəf gedin. Sonra da məktubunu tapmışdılar..."

## "REMBO TƏKCƏ KİNODA DEYİL, HƏYATDA DA VAR"

Hər kəs yaxşı xatırlayır. Rusiya prezidenti Vladimir Putinin Azərbaycanda yeni Rembo peyda olub, deyə bildirmişdi: "Mən çox qəribə və maraqlı məlumat almışam. Bir gecə silahlanıb təkbaşına erməni ordusuna qarşı hücuma keçərək 135 nəfər erməni əsgər və zabitini qanına qəltan edib. Əgər rəsmi məlumat olmasaydı, mən bu xəbərə inanmazdım. Çünki biz bu cür igidlikləri kinolarda görmüşük. Rembo kinoda 200 nəfərdən çox adam öldürəndə, deyirsən ki, bu fantastikadır. Həqiqətən də bu fantastikaya oxşayır. Axı, necə ola bilər ki, bir nəfər silahlı 200 nəfər silahlıya atəş açır, 200 nəfərin atdığı atəş isə bu bir nəfərə dəymir, həmin bir nəfər isə sərrast atəşlə hamısını yerə sərir. Bu heç cür ağılabatan deyil. Deməli, Rembo təkcə kinoda deyil, həyatda da var."

Bu əfsanələşən bir filmin qəhrəmanı bizim Mübarizdir. Azərbaycanlı Mübariz. Dünyaya, ən əsası da erməniyə Azərbaycan gücünü, Azərbaycan oğlunun belə bir cəsarətini, qəhrəmanlığını göstərdi. Fəxrimiz, Fəxarətimiz MÜBARİZ. Belə bir şəhidlik, qəhrəmanlıq hər həsə nəsib olmur. Bunu Azərbaycan torpağının yetirdiyi Mübariz İbrahimov göstərdi! Vətən üçün hər kəsin cavabdeh olmasını yaxşı anlayırdı Mübariz İbrahimov. Hər vaxt üçrəngli bayrağını uca tutan cəsur oğullar millətimizin qürur mənbəyidir.

## MÜBARİZİ YAŞADIĞI ZAMAN, DOĞULDUĞU TORPAQ QƏHRƏMAN ETDİ

Azərbaycanda saxta qəhrəmanlar olmur. Bugünkü dünyada bütün arxiv sənədlərinin aşkar şəkildə olması, həqiqətlərin dünyaya çatdırılması, ağı qaradan seçməyə imkan yaradıb. Təbii ki, heç kəs anadan qəhrəman doğulmur. Onu yaşadığı zaman, doğulduğu torpaq, vətənpərvərlik ruhu yetişdirir.

Ermənilərə dərs verən Mübariz İbrahimovun cəsədini Ermənistan 141 gün saxlamışdır. Ermənilər İbrahimovun cəsədinin şəkillərini internet saytlarında yayımlamışdır. Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair 27 oktyabr 2010-cu il tarixli birgə bəyanatına uyğun olaraq, eyni zamanda, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının beynəlxalq təşkilatlarla apardığı müntəzəm danışıqların nəticəsində, İbrahimovun meyidi 6 noyabr 2010-cu il tarixdə Ağdam-Bərdə yolunun üzərində, işğal altındakı Baş Qərvənd kəndi yaxınlığında Ermənistan tərəfdən alınmışdır. Proses Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və Azərbaycan Respublikası Müdafiə Nazirliyi əməkdaşlarının iştirakı, Beynəlxalq Qızıl Xaç Komitəsinin vasitəçiliyi ilə həyata keçirilmişdir. 2010-cu il noyabrın 7-də Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində keçirilən vida mərasiminə Azərbaycan Prezidenti İlham Əliyev də iştirak edərək, nitq söyləmişdir. Bizim qəhrəman İkinci Fəxri xiyabanda dəfn olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Milli Ordusunun giziri Mübariz Ağakərim oğlu İbrahimova "Azərbaycanın Milli Qəhrəmanı" adının (ölümündən sonra) verilməsi barədə Sərəncam imzalayıb. Prezidentin başqa bir Sərəncamı ilə Milli Qəhrəman Mübariz Ağakərim oğlu İbrahimovun xatirəsini əbədiləşdirmək məqsədilə Biləsuvar rayonunun orta məktəblərindən birinə Mübariz İbrahimovun adı verilib. Biləsuvar rayonunda küçələrdən biri Mübariz İbrahimovun adını daşıyır. 2008-ci ildə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi "İstiqlal" snayper tüfəngləri ailəsindən 12.7 mm çaplı ikinci tüfəng onun şərəfinə "Mübariz" adlandırılıb. Qardaş Türkiyə də tədbir, film və seriallarında Azərbaycan qəhrəmanı Mübariz İbrahimovun adını sonsuz hörmət və məhəbbətlə yada salıb və salır. Onun qəhrəmanlığı TRT 1 kanalında nümayiş olunan "Qızıl Alma" serialında geniş yer alıb. Mübariz İbrahimovun adını daşıyan gəmi 2010-cu ilin oktyabr ayının 15-də Türkiyədə "Beşiktaş" gəmiqayırma zavodundan suya endirilib. Türkiyədə suya endirilmiş bu gəmi hazırda Milli Qəhrəman Mübariz İbrahimovun adını dünya sularında tanıdır.

2014-cü ildə Kanadanın Ottava şəhərində yerləşən Minto Parkında Azərbaycan icmasının təşəbbüsü ilə Mübariz İbrahimov adına xatirə lövhəsi vurulub. 2016-cı ildə Sumqayıtda küçələrdən birinə Milli Qəhrəman Mübariz İbrahimovun adı verilib. Mübariz İbrahimova həsr edilən "Müqəddəs zirvə" adlı film çəkilib. Nə qədər onun haqqında yazılsa da, yenə də Mübarizlə bağlı olan fikirlərə, sözə nöqtə qoyulmur. Hər tərəfdən Mübariz işığı görünür, Azərbaycanı şöləndirir.

Mübariz adını doğrultdu. Vətəninin mübarizliyini dünya bir daha sübut etdi. Bu ad hər azərbaycanlının qəlbindədir! Şəhid Mübarizimiz yaşayır!!! Bu gün o, məzarında rahat nəfəs alır. Onun məsləkdaşları Mübariz ruhunda böyüdülər. Çoxları Mübariz yolu ilə getmək arzusu ilə yaşayırdı. Axı vətən torpağının 20 faizi işğal altında idi. 2020-ci il 27 sentyabr tarixində başlanan Vətən müharibəsində vətənin müdafiəsinə qalxdılar. Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında bir yumruq olaraq birləşdilər. Geriyə dönmədən bu günü illərdir gözlədiklərindən düşməni 44 günlük müharibədə məğlub etdilər. Zəfəri yaşamaq xalqımıza nəsib oldu. Bu yolda şəhid də oldu, qazi də. 30 illik həsrətə son qoyuldu. Xalqın Zəfər tarixi yazıldı. Bu gün Azərbaycanda minlərlə MÜBARİZLƏR var. Bəli, tarix heç zaman unudulmur, tarix yazılır. Tarixi yazan isə Vətənin namuslu, mərd və MÜBARİZ oğullarıdır. Bizim qəhrəmanlarımız ermənilərin yaratdığı "qəhrəmanlar" kimi mif deyil. Biz ermənilər kimi uşaq başı kəsən, qadın və qocalara divan tutanları qəhrəman etmirik, bizim Mübariz kimi real igidimiz var ki, tarixə şəhidlik zirvəsinə yüksələrək adları yazıblar. Torpaqlarımızı işğaldan azad edən igid ŞƏHİDLƏRİMİZ!!! Allah bütün şəhidlərimizə rəhmət eləsin!

*Nəzakət ƏLƏDDİNQIZI*

# Keçmiş olsun, Türkiyəm!



***Qardaş Türkiyədə güclü zəlzələ baş verdi. Həyatını itirənlərin sayı mindən yuxarıdır. 7,7 bal gücündə baş verən yeraltı təkanlar yüzlərlə evi yerlə-yeksan etdi. Adana, Ankara, Antalya, Qaziantep, Kayseri, Mersin, Trabzon, Şanlıurfa səhər saatlarında baş verən təbii hadisənin gurultusuna oyandı. Kahramanmaraşda baş verən və ölkənin bir çox yerində hiss edilən zəlzələdən zərər çəkən bütün vətəndaşlara ”keçmiş olsun” deyən Prezident Rəcəb Tayyib Ərdoğan ”Ümid edirəm ki, hamımız bu fəlakətdən ən qısa zamanda və ən az zərərlə çıxacağıq. Biz işimizi davam etdiririk”, deyə bildirib. Bəli, Türkiyə yaralarını sarıyır, qardaş Azərbaycandan başqa bütün dost ölkələr zəlzələdən zərərçəkmişlərə yardıma tələsir.***

Bu gün həm də başqa bir hadisə, daha doğrusu toplantı keçiriləcəkdi. Türkiyə prezidentinin dediyi kimi, dünya gücləri ”Avropadan Amerikaya” ölkədə keçiriləcək prezident və parlament seçkilərinə təsir etmək, Ərdoğana qarşı çirkin kampaniyalar aparmaq məqsədilə birləşmək mesajlarına qarşı qardaş ölkənin atacağı addımalar müzakirə olunacaqdı.

Qeyd edək ki, R.T.Ərdoğan üçüncü prezidentliyə namizədliyini irəli sürür. O, AK Partiyadan namizəd olacaq. Müxalifət partiyalarının koalisiyası hələ ki, öz namizədini açıqlamayıb. Avropa Birliyi, o cümlədən Amerika qitəsinin bəzi ölkələri terror bəhanəsi ilə Türkiyədəki səfirlik və konsulluqlarını bağlamaq barədə qərar vermələri qardaş ölkədə fərqli fikirlərin hakim olmasını qaçılmaz edib. Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop bu bəhanə ilə konsulluqlarını bağlayan ölkələrdən İstanbulda terror aktı təhlükəsi olduğuna dair sübutların olmasını şübhə altına alıb. ”Əgər onların sübutları olsaydı, bizimlə bölüşmək düzgün olardı”, - deyə Şentop bildirib.

O qeyd edib ki, ”indiyə qədər heç bir sübut təqdim edilmədiyini nəzərə alsaq, bu, onlarda sübutun olmadığını deməyə əsas verir”. Böyük Britaniyanın İstanbuldakı Baş Konsulluğu fevralın 1-də Türkiyə şəhərinin mərkəzində terror aktları təhlükəsi səbəbindən ziyarətçi qəbulunu dayandıracağını açıqlayıb. İsveç, Hollandiya, Fransa, İsveçrə, Almaniya da daxil olmaqla 9 ölkənin diplomatik nümayəndəlikləri qeyri-müəyyən vaxta qədər bağlanıb. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, bu ölkələri Türkiyənin müttəfiqi və dostu adlandırmaq çətindir. Rusiyanın İstanbuldakı nümayəndəliyinin bağlanmadığı, gücləndirilmiş mühafizə ilə təmin edildiyi də bildirilib.

## ”Biz lazımi qərarları verəcəyik”

Türkiyənin Nazirlər Kabineti Qərb ölkələrinin konsulluqlarının bağlanması ilə bağlı cavab tədbirlərinin görülməsi barədə qərar qəbul edəcək. Bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Aydın şəhərində gənclərlə görüşü zamanı deyib: ”Xarici işlər nazirimiz bundan əvvəl bu ölkələrin bütün səfirlərini çağırmışdı. Onlara ultimatum verildi ki, ya bu cür hərəkətlərini dayandıracaqlar, ya da bu onlara çox baha başa gələcək. Bazar ertəsi Nazirlər Kabinetinin iclasımız var. Biz orada lazımi qərarları verəcəyik”.

Türkiyə Daxili İşlər Nazirliyinin rəhbəri Süleyman Soylu hesab edir ki, Qərb onun ölkəsinə psixoloji müharibə elan edib. Soylu ABŞ səfiri Ceff Fleykə hətta tənqidlə deyil, əsl məzəmmətlə hücum edib. ”Çirkli əllərinizi çəkin” deyə nazir tələb edib. Onun qəzəbinə Fleykin ölkənin daxili işlərinə qarışmaq cəhdləri səbəb olub: ”Xüsusilə, ABŞ səfiri seçkilərdən bir neçə ay əvvəl mütəmadi olaraq müxalifət liderlərinə təlimatlar verir. Vaşinqtonun Türkiyənin daxili işlərində nə işi var?”. Prezident Ərdoğanın komandasının ən fəal üzvü olan Türkiyənin daxili işlər naziri Süleyman Soylu hesab edir ki, ABŞ diplomatik korpusu on illərdir Türkiyə əleyhinə siyasət yürüdür. ”Hər bir Amerika səfiri sual verir, ”Mən Türkiyəyə necə zərər verə bilərəm”. Bu, uzun illərdir Türkiyənin ən böyük bədbəxtliklərindən biri olub. ABŞ-ın Türkiyədəki səfirliyi başqa səfirləri yığıb onlara məsləhətlər verməyə çalışır”, - deyə nazir hiddətlənib.

Soylunun sözlərinə görə, amerikalı diplomatlar eyni şeyi Avropanın digər ölkələrində də edirlər. Onlar xarici ölkələrə pərdə arxasından nəzarət etməyə çalışırlar: ”Narahat olmayın, avropalılar bundan üzülməyəcəklər. Onlar bunun doğru olduğunu bilirlər. Onlar Türkiyəni dizayn edə biləcəklərini düşünürdülər, amma bir nəfər onların oyununu məhv etdi - Rəcəb Tayyib Ərdoğan. Mən sizin nə etdiyinizi, hansı addımları atdığınızı, Türkiyəni necə qızışdırmaq istədiyinizi çox yaxşı bilirəm. Çirkli əllərinizi, maskalı sifətlərinizi Türkiyədən uzaqlaşdırın”.

Nəzərə almaq lazımdır ki, nazirdən inciyən Ceff Fleyk hansısa adi karyera diplomatı deyil. Səfir təyin olunmazdan əvvəl o, Arizonadan senator, məşhur və mərhum Con Makkeyin (bir ştatdan seçilmiş) həmkarı olub. Fleyk respublikaçılara mənsub olmasına baxmayaraq, təyinatını demokrat prezident Baydendən alıb.

Soylunun belə emosional çıxışına səbəb olan qalmaqal bu həftə İstanbulda yaranıb: bir anda altı ölkənin - Hollandiya, Almaniya, Fransa, İsveç, İsveçrə və Böyük Britaniyanın konsulluqları bağlanıb. Bağlanmaya səbəb ABŞ səfirliyinin terror aktları təhlükəsi ilə bağlı verdiyi xəbərdarlıq olub. Nədənsə amerikalıların öz konsulluğu bağlanmadı. Səfirliyin məlumatına görə, Avropa ölkələrində Quranın kütləvi şəkildə yandırılmasından sonra terror aktlarının baş vermə ehtimalı artıb.

İstanbul Universitetinin professoru Mehmet Perincek hesab edir ki, amerikalıların terror aktları ilə bağlı etdiyi xəbərdarlıq əslində Türkiyədə terror aktı törətmək təhlükəsinə çevrilib. ”Onlar eyham vururlar ki, özlərinin İstanbulun mərkəzində yenidən bomba partlatmağa hazırdırlar, necə ki, noyabrda şəhərimizin əsas turistik küçəsində baş vermişdi. ABŞ həmişə PKK yaraqlılarından Türkiyədə sabitliyi pozmaq lazım olduqda istifadə edir”, professor deyib.

Bu yaxınlarda yarırəsmi ”Foreign Policy” jurnalı (Vaşinqton) bir məqalə ilə çıxış edməklə Türkiyədə baş verəcək hadisələri proqnozlaşdırıb: ”Ərdoğan Türkiyədəki seçkilərdə qalib gəlsə, Türkiyə ”qan gölünə” çevriləcək”. Qeyd edək ki, nəşr ABŞ səfirliyinin hücumları ”elan etməsindən” bir həftə əvvəl çıxıb.

Bütün bunlar Ankaranın isveçliləri NATO-ya buraxmaqdan imtina etməsi fonunda baş verir. Türkiyənin NATO qərargahı ilə münasibətləri çox gərgindir. Prezident və parlament seçkilərinə üç ay qalıb. Belə bir nəticəyə gəlmək olar ki, amerikalılar Baydenyönlü, qərbyönlü müxalifətin qələbəsi üçün əlverişli zəmin yaratmaq üçün Türkiyədə xaos yaratmağa başlayıblar. Düzünü desək, xarici diplomatların davranışı Daxili İşlər Nazirliyinin deyil, Xarici İşlər Nazirliyinin fəaliyyət sahəsinə aiddir. Soylunun həmkarı, xarici işlər naziri Mevlüt Çavuşoğlu cümə günü Qərb səfirlərini öz iqamətgahına çağırıb və onları bir az yumşaq tonlarda qınayıb. Əgər Soylu diplomatik nümayəndəliklərin kütləvi şəkildə bağlanması ilə demarşın təşkilatçısı kimi birbaşa Fleyki yaxalayıbsa, Çavuşoğlu bunu daha çevik ifadə edib: ”Ankara bilir ki, ”bəzi ölkələr başqalarını bu aksiyaya qoşulmağa çağırır. Əgər onlar müttəfiq olsaydılar, bizi yaxınlaşan təhdidlər barədə xəbərdar edərdilər. Əgər terror təhlükəsi varsa, bizə məlumat verməli idilər. Daxili İşlər və Kəşfiyyat Nazirliyimizə müraciət etdik. Konkret məlumat mübadiləsi aparılmadı. Biz hesab edirik ki, bu bağlanma kampaniyaları məqsədyönlüdür, lakin terrorla bağlı deyil”.

Qərb dövlətlərinin tutduğu yanaşma ”terrorçuların maraqlarına xidmət edir”. Amerika və Qərb Türkiyənin müstəqil və azad olmağımızı istəmir. Türkiyəyə 60 milyon turistin gələcəyi və 46 milyard dollar turizm gəliri əldə ediləcəyi planlaşdırılan zaman qərblilər bu psixoloji müharibəyə başlayıblar. Terror aktları ehtimalını açıq şəkildə bəyan edən ölkələrin heç biri Türkiyənin hüquq-mühafizə orqanları ilə əlaqə saxlamayıb. Əvvəllər Türkiyə həbsxanalarından ”lazım olan insanları” çıxara bilməyən Qərb diplomatları Türkiyəyə qarşı qanuni əməliyyat keçirməyə qərar veriblər, indi isə terror əməliyyatı həyata keçirməyə çalışırlar. Bununla da Qərbin xüsusi xidmət orqanlarının İstanbulda terror aktı hazırladığını deyə bilərik. Qərb ölkələrindən birinin kəşfiyyatçısı Türkiyədə bəzi insanlara ”iş təklif edib”. Amma Türkiyə eyni şeyi etməyə çalışsa terrorçu dövlət elan edilə bilər.

Bununla bağlı 15 nəfər saxlanılıb, beş nəfər həbs edilib. Terror təşkilatlarını kimin qidalandırdığı məlumdur. Amerika Birləşmiş Ştatları PKK-nı qidalandırır. İllərdir ki, ona pul, maddi-texniki təminat, insanlarla kömək edirlər.

Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu nəzdində Müasir Türkiyəni Öyrənmə Mərkəzinin direktoru Amur Hacıyev konsulluqların kütləvi şəkildə bağlanmasını şəxsən Türkiyə liderinə qarşı demarş hesab edir. ”Qərb bununla da Ərdoğana və onun Ədalət və İnkişaf Partiyasına düşmənliyini nümayiş etdirir. İndi məlum olub ki, amerikalı parlamentarilər Ankaraya F-16 qırıcılarının tədarükünü Türkiyənin İsveç və Finlandiyanın NATO-ya daxil olmasına vetosunun ləğvi ilə əlaqələndirmək istəyirlər. Ankaranın Aİ və ABŞ ilə münasibətləri hazırda gərgindir. Lakin may seçkilərinin nəticələrindən sonra Qərb Türkiyəni öz təsir dairəsinə qaytarmaq, ona Yaxın Şərqdəki forpostu statusunu qaytarmaq istəyir”, - Hacıyev deyir. ”İndi rəngarəng türk müxalifəti ”Altılıq”da birləşib və bu alyans artıq seçki vədlərini və planlarını açıqlayıb, o cümlədən Qərblə yaxınlaşma da var. Ana müxalifət qüvvəsi olan Cümhuriyyət Xalq Partiyasının lideri Kamal Kılıçdaroğlu, Altılıq Alyansındakı digər partiyaların nümayəndələri kimi səfir Fleyklə də müntəzəm olaraq görüşür. Bununla belə, cəmiyyətdə Qərbin şıltaqlığına, respublikanın daxili işlərinə qarışmasına qarşı hiddət artır. Eyni zamanda türklərin böyük əksəriyyəti Ərdoğanın xarici siyasət addımlarını bəyənir. Bunun fonunda bəzi partiyalar hətta NATO-dan çıxmaq üçün imza toplanmasına da başlayıblar”, - politoloq izah edir.

Vaşinqton Ankaradan Rusiyaya mal ixracını dayandırmağı tələb edib, çünki bu mal axını Ukrayna əməliyyatını davam etdirmək üçün Moskvaya ”kömək edir”. Bloomberg-in mənbələrə istinadən verdiyi məlumata görə, ötən həftə ABŞ maliyyə nazirinin müavini Brayan Nelson Türkiyə rəsmiləri ilə danışıqlar aparıb və o bildirib ki, on milyonlarla dollar dəyərində sanksiya tətbiq edilən mallar artıq Türkiyə üzərindən Rusiyaya çatılıb və onlardan bəziləri ölkədə istifadə oluna bilər. Ən son məlumata görə, ABŞ və Avropa rəsmiləri terror məsələsini müzakirə etmək üçün yaxın həftələrdə Ankaraya qayıtmaq niyyətindədirlər.

## Hələlik isə...

Türkiyə təbii fəlakətin aradan qaldırılması ilə məşğuldur. Prezident Ərdoğan bu gün baş verən zəlzələni 1939-cu ildən bəri ən böyük fəlakət adlandırıb. Kahramanmaraşın Pazarcık rayonunda 7,7 bal gücündə baş verən zəlzələ bir çox şəhərlərdə hiss olunub. Prezident Ərdoğan bildirib ki, 1939-cu il Ərzincan zəlzələsindən sonra ən böyük fəlakətlə sarsıldıq. Zəlzələ mərkəzinə nisbətən yaxın olan əyalətlərimizdə cüzi dağıntılar olsa da, əsas dağıntının burada baş verdiyi anlaşılır. Cənub qonşumuz Suriyanın sərhədlərimizə yaxın şəhərlərində də ciddi dağıntılar yaşanıb. Dövlət zəlzələdən sonra bütün qurumları ilə hərəkətə keçib. Valiliklər dərhal bütün imkanları səfərbər etdilər. Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop, ”TBMM Baş Məclisi zəlzələ fəlakəti səbəbiylə sabah toplanacaq və işinə fasilə verəcək”, deyib. Dağıntılar altında olduğu bildirilən AK Partiya millət vəkili Yakup Taşla bağlı Şentop deyib ki, Adıyaman millət vəkili Yakup Taş və ailəsi ilə hələ də əlaqə saxlamaq mümkün olmayıb.

Azərbaycan Prezidenti İlham Əliyev, Qətər Əmiri Şeyx Təmim bin Həməd Al Sani, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan, Pakistanın Baş naziri Şahbaz Şərif və Özbəkistan Prezidenti Şevket Mirziyoyev zəlzələdə həyatını itirənlərə Allahdan rəhmət, yaralılara şəfa diləyiblər. Türkiyə ilə həmrəy olduqlarını bildirən liderlər türk xalqına ən xoş arzularını çatdırıblar.

Beynəlxalq yardımlar da davam edir. NATO və Aİ-dən başqa 45 ölkədən də yardım təklifi gəlib. Gün 85 milyon bir ürək, bir bilək günüdür. Qardaş Azərbaycan da Türkiyənin yanındadır!

***V.VƏLİYEV***

# Müsəlman Şərqində ilk dünyəvi peşəkar teatr

*Dövlət başçısının Sərəncamı ilə 150 yaşlı Azərbaycan peşəkar milli teatrının yubileyi qeyd olunacaq*

***Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı özünün tarixi, maddi-mədəniyyət abidələri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə hər zaman diqqətdə olub. Azərbaycan xalqının bədii təfəkkür və yaradıcılığına ölkənin qeyri-adi təbiəti, iqlimi, təbii sərvətlərinin zənginliyi də kifayət qədər təsirinin göstərib. Ölkəmizin müxtəlif sənət növlərinin hər biri ayrı-ayrılıqda uzun və mürəkkəb inkişaf yolu keçməsinə baxmayaraq, birlikdə vəhdət təşkil edərək Azərbaycan incəsənəti və mədəniyyəti haqqında tam təsəvvür yaratmağa geniş imkan verir. Müasir dövrümüzdə zəngin və çalarlı Azərbaycan mədəniyyəti və incəsənəti dünya ölkələrində yüksək səviyyədə təbliğ olunur, eyni zamanda dünya sənətsevərləri tərəfindən maraqla qarşılanır.***

Azərbaycanda böyük inkişaf yolu keçmiş teatr sənətinin də kökləri xalqın fəaliyyəti, dünyagörüşü ilə bağlıdır. IX əsrin ikinci yarısından etibarən cərəyan edən ictimai-siyasi hadisələr fonunda və maarifçilik hərəkatının güclü təsiri nəticəsində böyük mütəfəkkir Mirzə Fətəli Axundzadənin ədəbiyyatımıza yeni dram janrını gətirməsi ilə Azərbaycan teatrı müsəlman Şərqində ilk dünyəvi peşəkar teatr sənətinin ocağına çevrilmişdir. Qədim tarixə malik xalq tamaşaları zəminində təşəkkül tapan bu teatrın repertuarı yarandığı gündən bəri görkəmli Azərbaycan ziyalılarının dövrün mühüm hadisələrinin real bədii təsvirini verən qabaqcıl, demokratik ideyalı və ictimai məzmunlu əsərləri ilə zəngin olmuşdur.

Avropa təhsili görmüş azərbaycanlı gənclərin dünya klassiklərinin əsərlərini tərcümə edərək tamaşaya qoymaları Azərbaycanda teatr həvəskarlarını dünya ədəbiyyatı nümunələri ilə tanış etməklə bərabər, milli dəyərlərə söykənən yeni tipli teatrın yaradılması işinə güclü təkan vermişdir. Hüseyn Ərəblinski, Cahangir Zeynalov, Hüseynqulu Sarabski, Abbas Mirzə Şərifzadə, Mirzəağa Əliyev, Sidqi Ruhulla, Ülvi Rəcəb kimi fitri istedad sahiblərinin səyləri ilə ölkəmizdə milli peşəkar aktyorlar məktəbi formalaşmışdır. Həmin dövrdən etibarən xüsusi teatr binalarının inşasına başlanılmış və peşəkar teatrla bağlı digər sənət növləri də inkişaf etdirilmişdir. Uzun bir yol keçmiş Azərbaycan peşəkar milli teatrının yaradılmasının 2023-cü ildə 150 ili tamam olur. Ölkənin mədəni-ictimai həyatının əhəmiyyətli hadisəsi kimi Azərbaycanda peşəkar milli teatr yaradılmasının 150 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirəcək.

## XALQ TEATRI PEŞƏKAR MİLLİ TEATRA ÇEVRİLDİ

Azərbaycan teatrı xalqımızın mədəni sərvətidir. Həmin sərvətin qorunması və inkişaf etdirilməsi Azərbaycan dövlətinin mədəniyyət siyasətinin əsas prioritetlərindən biridir. Respublikamıza rəhbərlik etməyə başladığı ilk illərdən milli-mənəvi dəyərləri ön planda tutmaqla tarixi-mədəni irsimizə münasibətdə dönüş yaradan Ulu Öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə Azərbaycan teatrının 100 illik yubileyinin təntənəli qeyd olunması diqqətəlayiq mədəniyyət hadisəsinə çevrilmiş və teatrımızın çiçəklənməsinə yeni stimul vermişdir. Azərbaycan teatrı XIX əsrin taleyüklü ictimai-siyasi hadisələri fonunda köklü dəyişikliklər baş verərkən böyük maarifçi Mirzə Fətəli Axundzadənin ədəbiyyatımıza dram janrını gətirdiyi və xalq teatrının peşəkar milli teatra çevrildiyi bir vaxtda təşəkkül tapmışdır. Həmin dövrdə ziyalılarımızın Bakı, Şuşa, Şəki, Lənkəran, Naxçıvan, Tiflis və İrəvanda təşkil etdikləri tamaşalar bu şəhərlərin mədəni həyatında mühüm rol oynamışdır.

Azərbaycan teatrı həmişə fəal mövqeyi ilə seçilərək ictimai fikrin ön sıralarında dayanmış, cəmiyyətin mədəni tərəqqisinə və milli şüurun inkişafına əhəmiyyətli təsir göstərmişdir. Ədəbi fikir tariximizin görkəmli nümayəndələri xalqa müraciət üçün teatr səhnəsindən



yüksək xitabət kürsüsü kimi istifadə etmişlər. Dramaturgiyamızın tarixinin hər bir inkişaf mərhələsində Azərbaycan teatrı orijinal aktyor məktəbi ilə əlamətdar olmuş, yüksək səhnə mədəniyyətinə malik sənətkarlar və istedadlı rejissorlar nəsli yetişdirmişdir. Ölkəmizdə bütünlüklə milli dəyərlər zəminində dolğun fəaliyyəti üçün geniş inkişaf perspektivləri açılan teatrlar şəbəkəsi vardır.

## MAARİFÇİLİK VƏ DEMOKRATİK İDEYALARA SADİQ AZƏRBAYCAN TEATRI

Tarixi dövrə nəzər salsaq görərik ki, Azərbaycan teatrının tarixi M.F.Axundzadənin 1873-cü ilin mart və aprel aylarında Bakıda səhnəyə qoyulan "Lənkəran xanın vəziri" və "Hacı Qara" tamaşalarından başlanır. H.Zərdabinin təşəbbüsü, N.Vəzirov və Ə.Adıgözəlovun yaxından iştirakı ilə Realni məktəbin şagirdləri tərəfindən göstərilən bu ilk həvəskar tamaşalar milli teatrın yaranması üçün qüdrətli təkan idi. Qabaqcıl Azərbaycan ziyalıları, sonralar Qori seminariyasını bitirən müəllimlər Şuşa, Naxçıvan və başqa şəhərlərdə teatr tamaşaları düzəldir, eyni zamanda, bu tamaşalarda "aktyor" kimi çıxış edirdilər. Şuşada qabaqcıl müəllim və ziyalı qüvvələri Y.Məlik-Haqnəzərovun rəhbərliyi ilə yay tətilləri zamanı klubda və Xandəmirovun teatrında müntəzəm surətdə tamaşalar təşkil edir, M.F.Axundzadənin komediyalarını oynayırdılar.

M.F.Axundzadənin əsərlərindən ibarət tamaşalar verildiyi bəllidir. 1876-cı ildən onun komediyaları Tiflisdə də oynanılmışdır. XIX əsrin 70-80-ci illərində Azərbaycanın müxtəlif şəhərlərində fəaliyyət göstərən teatr həvəskarları tədricən Bakıdakı teatr xadimləri ətrafında formalaşmağa başlayırlar. Ona görə də Bakının teatr həyatı 80-ci illərin axırlarına doğru yenidən canlanır və burada əsil mənada müəyyən bir teatr kollektivinin yaranmasına səbəb olur. 1896-cı ildə H.Zərdabi Bakıda "Birinci müsəlman dram truppası" adlı ilk professional teatr kollektivini təşkil etdi. 1897-ci ildə Bakıda ilk dəfə "Artistlər ittifaqı" yaradıldı. İnqilaba qədərki Azərbaycan teatrının repertuarı milli dramaturqların, həmçinin, rus və Qərbi Avropa klassiklərinin əsərləri ilə zənginləşdirilirdi. Azərbaycan teatrı ilk illərdən maarifçilik və demokratik ideyalara sadiq idi.

## "MÜSƏLMƏN ARTİSTLƏRİ İTTİFAQI" YARADILDI

1910-cu ildə "Səfa" adlı yeni mədəni-maarif cəmiyyəti və onun yanında teatr şöbəsi yaradıldı. 1908-ci il yanvarın 12-də (yeni üsulla 25-də) Bakıda ilk milli opera - Ü.Hacıbəyovun "Leyli və Məcnun" əsərinin tamaşası ilə Azərbaycan professional musiqili teatrının əsası qoyuldu. Musiqili teatrın yarandığı ilk illərdə onun repertuarını Ü.Hacıbəylinin 1908-1913-cü illərdə yaratdığı "Leyli və Məcnun", "Şeyx Sənan", "Rüstəm və Zöhrab", "Şah Abbas və Xurşid Banu", "Əsli və Kərəm" operaları, "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyaları təşkil edirdi. Ancaq özünün ayrıca repertuarı olmasına baxmayaraq, musiqili teatrda peşəkar ifaçılara böyük ehtiyac duyulurdu.

1916-cı ildə C.Məmmədquluzadənin "Ölülər" komediyasının tamaşaya qoyulması Azərbaycan teatrının ideyaca yetkinləşdiyini göstərən bir olay idi. Bu tamaşa mövhumat və cəhalət, yalan və zülm dünyasına qarşı bir ittihamnamə kimi səslənərək böyük uğur qazandı. 1917-ci ildə Bakıda "Müsəlmən artistləri ittifaqı" yaradıldı. A.M.Şərifzadə ittifaqa sədr seçildi. İttifaq bütün teatr dəstələrini öz ətrafına toplayaraq, yoldaşlıq münasibətləri əsasında tamaşalar verirdi. Ancaq bu ittifaq 1918-ci ilin mart ayınadək fəaliyyət göstərə bildi. Mayılov teatrının anterprenyorları binada Azərbaycan aktyorlarının çıxış etməsinə imkan vermirdilər. Qabaqcıl, demokratik ideyalarla sıx bağlı olan Azərbaycan teatrı xalqın mədəni inkişafında mühüm rol oynamışdı. Ancaq eyni zamanda, bu illərdə teatr hələ yüksək səhnə mədəniyyəti səviyyəsinə qalxmamışdı.

1920-ci ildə Azərbaycan Demokratik Cümhuriyyəti xaincəsinə dağıdıldıqdan sonra Azərbaycan XKS-nin 1920 il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı yaradıldı. Burada Bakıda fəaliyyət göstərən bütün truppalar və həvəskar aktyorlar birləşdi. 1918-ci ildə yanmış keçmiş Tağıyev teatrının binası respublika hökumətinin qərarı ilə bərpa olundu. 1922-ci ildə dram truppası Birləşmiş Dövlət Teatrından ayrılaraq, müstəqil teatra çevrildi. Həmin il "Hacı Qara" komediyasının yeni quruluşdakı tamaşası ilə Azərbaycan Dövlət Dram Teatrının təntənəli açılışı oldu. Azərbaycan dramaturgiyasının inkişafında son dərəcə mühüm rol oynayan, mədəni quruculuq sahəsində, eləcə də, teatr sənətinin təşəkkülündə böyük xidmətlər göstərən N.Vəzirov, Ə.Haqverdiyev, C.Məmmədquluzadə, S.S.Axundov kimi realist-demokrat yazıçıların fəaliyyəti, N.Nərimanov, Ü.Hacıbəyli, M.Maqomayev və C.Cabbarlının, başqa görkəmli ədəbiyyat və incəsənət xadimlərinin, aktyor və rejissorların mətbuatda çıxışları teatrın inkişaf prinsiplərinin, milli və dünya dramaturqlarının klassik irsinə düzgün münasibətin müəyyənləşməsində mühüm rol oynamışdır.

## MİLLİ TEATR SƏNƏTİMİZİN UĞURLU İNKİŞAF YOLU

1970-ci illərdə Azərbaycanda, bütün sahələrdə olduğu kimi, teatr sahəsində də intibah yarandı. Teatra, sənət adamlarına böyük qayğı və hörmətlə yanaşan, onlara, sözün əsil mənasında, hamilik edən respublikamızın başçısı, Ulu Öndər Heydər Əliyevin səyi və köməyi nəticəsində milli teatr sənətimiz vüsətli inkişaf yoluna düşdü. 1974-cü ildə Azərbaycan teatrının 100 illik yubileyi görünməmiş təntənə ilə qeyd olundu. Azərbaycanın o vaxtkı MK-nın birinci katibi Heydər Əliyevin dərin məzmunlu məruzəsi dinlənildi. Yubiley münasibətilə "Gülüstan" sarayındakı ziyafətdə də Heydər Əliyev sənət, sənətkarlar və sənətkarlıq barədə məruzə ilə çıxış etdi. O vaxt neçə-neçə sənətçi təzə mənzillərlə təmin olundu, fəxri adlara layiq görüldü, mükafatlandırıldı. Həmin ildə təkcə Azərbaycan Dövlət Akademik Dram Teatrının üç görkəmli sənətkarı - M.Məmmədov, İ.Dağıstanlı və İ.Osmanlı - keçmiş SSRİ-də ən yüksək ad olan SSRİ xalq artisti adına layiq görüldülər. 1974-cü il 27 iyundan 10 iyula kimi teatr Moskvada qastrolda oldu. Lenin ordeni ilə təltif edildi. S.Vurğunun "İnsan", İ.Əfəndiyevin "Mahnı dağlarda qaldı", N.Poqodinin "Zamanın hökmü", F.Şillerin "Məkr və məhəbbət", V.Şekspirin "Fırtına", C.Məmmədquluzadənin "Ölülər" əsərlərinin tamaşalarını göstərdilər.

1988-ci ildən Azərbaycanda baş verən iqtisadi, ictimai-siyasi vəziyyət teatr sənətinə də mənfi təsir göstərdi. Ermənilər respublikamızda görünməmiş faciələr törətdilər. Xarici havadarlarına söykənən ermənilər torpaqlarımızı işğal etdilər. Günahsız dinc əhalini qırdılar. Xocalı soyqırımı törətdilər. 1990-cı ilin 20 Yanvar faciəsinə səbəb oldular. Kütləvi talanlar edib, xalqımızın milli mədəniyyət abidələrini uçurub dağıtdılar. Ən yaxşı sənət əsərlərimizi xarici ölkələrə aparıb öz adlarına çıxdılar.

Azərbaycanın Akademik Milli Dram Teatrında Azərbaycan və qeyri-milli dramaturqların klassik və müasir mövzuda bir sıra maraqlı əsərlərin tamaşası hazırlandı. "Hökmdar və qızı", "Hara gedir bu dünya?", "Özümüzü kəsən qılınc", "Dar ağacı", "Məhəbbət və azadlıq adası", "Dişi canavar", "Ah qadınlar, qadınlar", "Qısqanc ürəklər", "Min illərin işığı", "Hərdən mənə mələk də deyirlər" və s. tamaşalar oynanıldı. Bu tamaşaların əksəriyyətinin premyerasında Ulu Öndər Heydər Əliyev iştirak edərək tamaşa haqqında, eləcə də, yaradıcı simalarla bağlı bir teatrşünas, teatr tənqidçisi kimi fikirlərini bildirmişdir. Peşəkar teatr kimi püxtələşən Azərbaycan Dövlət Akademik Dram Teatrı müstəqillik dövründə ilk dəfə Türkiyədə qastrolda olub. "Bizim qəribə taleyimiz" və "Sevgililərin cəhənnəmdə vüsalı" tamaşalarını göstərib. İkinci dəfə Türkiyəyə səfər edən teatr "Hara gedir bu dünya?" tamaşasını göstərir. Həmin ilin oktyabrında Almaniyanın Berlin şəhərində "Sevgililərin cəhənnəmdə vüsalı" tamaşası alman teatrsevərlərinə göstərildi. 1996-cı ilin mayında teatr "Kral Lir" tamaşası ilə Moskvada ikinci Beynəlxalq Çexov Festivalında çıxış etdi. 1998-ci ilin noyabrında akademik teatr üçüncü dəfə Türkiyəyə qastrola getdi. "Hökmdar və qızı", "Özümüzü kəsən qılınc" və "Mənim sevimli dəlim" tamaşalarını göstərdi.

Qeyd edim ki, uzun bir yaradıcılıq yoluna malik olan Azərbaycan teatrı 1922-ci ildən 1929-cu ilə kimi Akademik Dram Teatrı, 1929-cu ildən 1935-ci ilə kimi Bədaye Teatrı, 1935-ci ildən 1950-ci ilə kimi Dram Teatrı, 1950-ci ildən isə yenə Akademik Dram Teatrı adı ilə fəaliyyət göstərib. 1991-ci il dekabrın 27-dən Azərbaycan Milli Akademik Dram Teatrı statusu alıb.

1998-ci ildə Azərbaycan teatrının 125 illik yubileyi münasibətilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Sərəncam imzalayıb. Bu gün Azərbaycan peşəkar teatrı sənət yolunun yeni bir mərhələsini yaşayır. Belə ki, Ulu Öndər Heydər Əliyev ənənələrini layiqli davam etdirən Prezident İlham Əliyevin sərəncamı ilə teatr binaları təmir və bərpa edirilir, onların dünya teatr səhnəsinə uyğun olaraq fəaliyyət göstərmələrinə hər cür şərait yaradılır. Hər zaman sənət adamlarına diqqət və qayğı ilə yanaşan Prezident İlham Əliyevin 2013-cü il 1 mart tarixli Sərəncamı ilə ölkəmizdə "Milli Teatr Günü" təsis edilib. Sərəncama əsasən, milli mədəniyyətin inkişafında və ölkənin mədəni həyatında milli teatrın əhəmiyyəti və rolu nəzərə alınaraq hər il martın 10-u Azərbaycan Respublikasında "Milli Teatr Günü" kimi qeyd edilməsi qərara alınıb. Prezidentin sərəncamları əsasında teatr xadimlərinə xüsusi mükafatlar, fəxri adlar verilir, həyat şəraitləri yüksəldilir.

Xalqımızın ictimai-siyasi həyatında, mədəniyyətimizin inkişafında böyük rol oynayan və dolğun fəaliyyəti ilə milli sərvətə çevrilən Azərbaycan teatrı vətənpərvərlik duyğularının aşılanmasında, yüksək mənəvi keyfiyyətlərin, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rola malikdir.

**Zümrüd BAYRAMOVA**

***- Azər müəllim, Qərbi Azərbaycana qayıdışla bağlı konsepsiya hazırlanıb. Sizcə, bu konsepsiyanın həyata keçirilməsi hansı müddətə mümkün ola bilər?***

- Qərbi Azərbaycana qayıdışla bağlı konsepsiya uzunmüddətli icra proqramıdır. Konsepsiyada qaçqınların və məcburi köçkünlərin öz tarixi torpaqlarına qayıtması üçün nail olunmalı hədəflər müəyyənləşmişdir. Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı sülh yolu ilə təmin edilməsi nəzərdə tutulur. Bunun üçün icmanın qarşısında qərbi azərbaycanlıların pozulmuş hüquqlarının tanıdılması və bərpası istiqamətində beynəlxalq hüquq müstəvisində dəstək alınmalıdır. O cümlədən, BMT-də bu məsələ hüquq cəhətdən dəstəklənməli və qayıdış prosesi BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının iştirakı ilə həyata keçməlidir. Hesab edirəm ki, bu proseslərin təmin olunması üçün on illər lazım olacaqdır.

***- Verilən məlumata görə, artıq Qərbi Azərbaycan İcmasından 100 mindən çox Qərbi azərbaycanlı qeydiyyatdan keçib, onların sayı 250 mindən çox ola biləcəkmi?***

- Qərbi Azərbaycandan soydaşlarımız zaman-zaman deportasiya olunmuşdur. Əlbəttə ki, azərbaycanlılara qarşı edilmiş deportasiyalar beynəlxalq hüquqa zidd və insan hüquqlarının kobud şəkildə pozulmasıdır. Amma bununla yanaşı, deportasiyaya məruz qalmış hər bir Qərbi azərbaycanlı yenidən öz vətəninə qayıtmaq arzusu ilə yaşayır. Qərbi Azərbaycanlıların İcması üçün inzibati binasının açılması və fəaliyyətinin təşkili öz doğma yurdlarına qayıtmaq arzusu olanların öz istəklərini bölüşməsinə şərait yaratmışdır. Belə ki, qısa zaman kəsiyində 100 mindən çox Qərbi azərbaycanlı qeydiyyatdan keçmişdir. Ancaq ötən əsrin 80-ci illərin sonu 90-cı illərin əvvəlində Ermənistandan 300 mindən çox azərbaycanlı deportasiya olunmuşdur. Bununla yanaşı, əvvəlki deportasiyaları da nəzərə alsaq, əlavə olaraq 100 minlərlə soydaşımız öz doğma yurdlarından qovulmuş, Azərbaycana pənah gətirmişdir. Bu gün isə Qərbi Azərbaycandan qovulmuş azərbaycanlılar daha da artmışdır. Hesab edirəm ki, qayıdış prosesinə qədər öz doğma yurdlarına qayıtmaq istəyən 100 minlərlə azərbaycanlı icmada qeydiyyatdan keçəcəkdir.






# “Qərbi azərbaycanlıların tarixi torpaqları Qərbi Zəngəzurdan başlanır”

*Milli Məclisin deputatı Azər Badamovun "Səs" qəzetinə müsahibəsi*






***- Qərbi Azərbaycan İcması molla rejiminin törətdiyi terror əməli ilə bağlı BMT-də bəyanat yayıb. Sizcə, dünya birliyinin həmin bəyanata reaksiyası necə olacaq?***

- Hesab edirəm ki, bu, çox vacib addım idi. Təkcə Qərbi Azərbaycan İcması yox, QHT-lər, ictimai fəallar, siyasi partiyalar da belə bəyanatlarla beynəlxalq təşkilatlara müraciət etməlidirlər. Çünki İranda törədilmiş terror təşkilatlanmış planın icrasıdır. Bütün dünya səfirliyimizə olunmuş terrorla bağlı öz münasibətini bildirməlidir. Həm də çalışmalıyıq ki, silahlı basqınla bağlı araşdırmalar beynəlxalq ekspertlərin iştirakı ilə şəffaf aparılsın və təşkilatçılar müəyyənləşsin.

***- Qərbi Azərbaycan İcmasının fəaliyyəti Ermənistanla yanaşı, bəzi xarici qüvvələri də narahat edib. Ermənistan başadüşülləndir, bəs digər dövlətlər niyə narahat olurlar?***

- Çox düzgün qeyd edirsiniz. Qərbi Azərbaycan İcmasının məqsədi məcburi köçkünləri və qaçqınları öz doğma yurdlarına qaytarmağına hədəflənib. Qərbi Azərbaycanlıların tarixi torpaqları Qərbi Zəngəzurdan başlanır. Qərbi Zəngəzura qayıtmağımız İran və ermənilərə dəstək verən dairələrin istəklərini əsirgəmədi. Çünki Qərbi Zəngəzura yenidən məskunlaşmağımız Azərbaycanın Naxçıvanla birləşərək bütövləşməsinə yol açır. Digər bir məsələ azərbaycanlıların öz doğma torpaqlarına qayıtması beynəlxalq səviyyədə təzminatların tələb olunması üçün presedent yaradır. Ona görə də həmin dairələr Qərbi Azərbaycan İcmasının fəaliyyətə başlanmasından narahat olmağa başlayıblar.

**Gülyana**

# O, 70 yaşı deyil, ölümü seçdi



**Yazda, güllü-çiçəkli bir vaxtda doğulmuşdu. May ayının 28-i Azərbaycanın müstəqil bir dövlət kimi dünya xəritəsində yer aldığı vaxt, Azərbaycan Xalq Cumhuriyyətinin yarandığı gün onun doğum günü idi. Bilərəkdən doğum günü tarixinə biganəlik edib ad günü keçirmək istəməsə də, doğulduğu günün nə qədər əhəmiyyətli olduğunun mahiyyətindən çox ürəklə danışardı. Biz onu bir neçə dəfə telefonla, "facebook" üzərindən təbrik etmişdik. Təvəzökarlığı o qədər böyük idi ki, diqqəti özündən yayındırıb başqa məcraya yönəltməyə çalışırdı. Bu yazda da keçən illərdə olduğu kimi onu təbrik etdim və dedim ki, elə-belə quru təbriklə olmur, televiziyamız sizin haqqınızda yaxşı bir sənədli film çəkmək istəyir.**

Artıq onun başqa bir söz deməsinə yer qoymamışdım. Amma təklifimə cavab olaraq "gələn ilə saxlayaq" dedi. Dedi ki, gələn il 70 yaşım tamam olacaq, gəl saxlayaq 2023-ə. Həqiqətən də maraqlı təklif olduğundan razılaşdım. Bir də fikirləşdim ki, Nazim Bababəyli üçün ən böyük yubiley hədiyyəsi məhz televiziyamızın hazırladığı film olar. Çox təəssüf ki, zalım əcəl bizim arzularımızı yarıda qoydu. Qəfil xəstələnməsi, ürəyində baş verən narahatlıqlar az bir zaman

rəqləmək istəsək, bunun üçün xeyli vaxt lazım gələr. Yaşadığı ömürün hər bir ili ilə bağlı bir kitab yazmaq olar. Təbii ki, Nazim müəllimi tanıyanlar, yaxud haqqında eşidib, daha ətraflı məlumat əldə etmək istəyənlər çoxdur. Biz də bunu nəzərə alıb dünyasını dəyişdiyi gün Naxçıvan Dövlət Unversitetinin öz səhifəsində paylaşdığı rekviumu necə varsa, o şəkildə də yazımıza daxil edirik. Gəlin onun böyük ömür yolunu kiçik yazıya sığdırıb birlikdə vərəqləyək.

Nazim Bababəyli 28 may 1953-cü ildə Naxçıvan şəhərində anadan olub. 1961-ci ildə Naxçıvan şəhər 1 saylı orta məktəbə daxil olan Nazim Bababəyli 1971-ci ildə həmin məktəbi bitirib. 1971-1975-ci illərdə indiki Azərbaycan Dövlət Pedaqoji Universitetinin Coğrafiya fakültəsində təhsil alıb. Nazim Bababəyli 1975-ci ildə Azərbaycan SSR EA "Kaspi" mərkəzində baş laborant vəzifəsində əmək fəaliyyətinə başlayıb. 1977-1978-ci illərdə Moskva şəhərində SSRİ EA Coğrafiya İnstitutunda kiçik elmi işçi vəzifəsində, 1978-1990-cı illərdə Kosmik Tədqiqatlar Elm və İstehsalat Birliyində mühəndis, kiçik elmi işçi, elmi işçi, laboratoriya rəisi, Elmi-Texniki Kompleksin rəhbərinin müavini vəzifəsində çalışıb. 1990-cı ildən Milli Aerokosmik Agentliyin Naxçıvan şöbəsində rəis vəzifəsində çalışmaqda idi.

2004-cü ildə "Araz çayının yuxarı hissəsinin ekoloji şəraiti" adlı dissertasiya müda-





ərzində onu bu dünyadan apardı. Bizim isə birlikdə bir çox planlarımız, arzu və istəklərimiz reallaşa, gerçəkləşə bilmədi.

Demək olar ki, Naxçıvanda onu tanımayan az sayda adam olardı. Uşaqdan-böyüyə onu tanıyanlar sosial media hesablarından Nazim Bababəylinin dünyasını dəyişməsi xəbərini oxuyanda bunun bir zarafat olduğunu zənn etdilər. Əslində isə bu, gülüş doğurmayan bir zarafat idi. Sonuncu dəfə Nazim Bababəyli öz ölüm xəbəri ilə son zarafatını hamıyla etdi. Bu xəbəri eşidəndə əksər insan internet üzərindən axtarış verəndə eşitdikləri xəbərin yalan olması üçün hətta Allaha da yalvarırdı. Mən də Allaha yalvarırıdım ki, bu xəbər yalan ola. Amma 5 dəqiqənin içərisində bu xəbər elə sürətlə tirajlandı ki, bütün ölkə mətbuatı onun ölümündən yazdı. Tanıyanlar, bilənlər sosial hesablar üzərindən edilən başsağlığına qoşuldular. Yazılan başsağlıqlarını oxuduqca məndə bir fikir formalaşdı ki, yaxşı, dəyərli, gözəl, səmimi, mehriban, qayğıkeş, mərhəmətli olmaqla, zalım, əzazil insanların da ürəyini ofsunlamaq olarmış. Hətta heyvanları da, çiçəkləri də, havanı da ram etmək üçün mütləq yaxşı adam olmaq lazımdır.

Bəlkə də onun ölüm xəbərini eşidənlərin arasında yaxınları qədər narahat olanların əksəriyyəti onun tələbələri idi. Müəllim -tələbə sevgisi gerçək həyatımızda bir o qədər inandırıcı görünməsə də, istisnalar var. Biz bunu professor Hüseyn Həşimlinin, Rafiq Babayevin, Hacı Qadir Qədirzadənin timsalında da gördük. Məsəl var, deyirlər ki, "Adam var evdən gedir, adam da var eldən gedir". Bəli, Nazim Bababəyli də eldən gedən adam olduğu üçün, onun yoxluğu təkcə ailə üzvlərini, qohumlarını deyil, həmçinin bütün onu tanıyanları yandırıb yaxdı.

İndi fikirləşirəm ki, əgər Nazim Bababəyli ilə bağlı film çəkmiş olsaydıq, mən girişi necə başlayardım? Bəli, indi ipucu tapa bilmirəm. Amma əgər sağ olsaydı girişdə təbii ki, Naxçıvanımızın gözəl təbiətini onun öz səsi ilə tərənnüm etməsindən başlayardım. Doğma Naxçıvanımıza qəlbən, ruhən, mənən bağlı adam idi coğrafiyaçı alim Nazim Bababəyli.

Sağlığında deyirdi ki, mənim Moskvada, Bakıda qalıb işləmək şanslarım var idi, amma qala bilmədim. Hara getdimsə doğulub boya-başa çatdığım Naxçıvan torpağı məni maqnit kimi özünə cəlb etdi. 5-10 günlük konfranslara gedişim belə mənə ən uzun səfər kimi görünürdü. O, həm də televiziya işçilərinin yaxın dostu idi. Buradan, televiziyamızdan tanımadığı, yeni gələn müxbirlər belə ona zəng edib müsahibə almaq istəyəndə, onlara da yox demirdi. Bəlkə də dünyada yeganə adam idi ki, leksikasında yox kəliməsi yox idi. Bəlkə də yeganə insan idi ki, bu dünyada könül qırmamışdı, kiminsə xətrinə dəyib, küskün salmamışdı.

2 böyük universitetdə dərs deyirdi. Böyük idarənin müdiri, Ali Məclisin deputatı idi, tez- tez xaricdən, Bakıdan qonaqlar olurdu və jurnalistlərin də ensklopedik bilik mənbəyi idi. Bildiyi sahələrdən sual verəndə elə ürəklə, səmimi cavab verirdi ki, sözünü kəsməyə, onu dayandırmağa heç qıymırdın. Naxçıvanın təbiəti, fauna və florası, təbii ehtiyatları, sərvətləri, geoloji quruluşu, coğrafi mövqeyi ilə bağlı kimə məlumat lazım idisə dərhal Nazim Bababəyliyə üz tuturdu. Soyuqdan, istidən, küləkdən, borandan çəkinmədən söz verirdisə mütləq gəlirdi.

Nazim Bababəylinin müəllimliyi ilə bağlı da çox maraqlı məqamlar var. O, özünün, ardıcıllarının yetişməsindən ötəri bütün bilik və bacarıqlarını tələbələrinə verməkdən çəkinmirdi. 50 tələbənin içərisində birinin onun dediklərinə marağını duyunca, o, bir nəfər daha da çox öyrənsin deyə 90 dəqiqə dayanmadan dərs keçir, izahlar verirdi. Bilirik ki, müəllim sözü ərəb, xoca sözü isə türklərin öz qrammatikasında gələn sözdür. Deyirdi ki, mənə xocam deyə müraciət edəndə daha da həvəslənirəm. Elə bilirəm bu sözün altında öyrətməklə yanaşı, həm də bir atalıq, qardaşlıq, dostluq dəyərləri yatır. Dünyanın çox yerində olmuşdu. Elmi konfranslarda, yığıncaqlarda, yüksək səviyyəli toplantılarda iştirak etmişdi. Hətta bir çox tədbirdə erməniləri faktlarla, sübutlarla yerində oturduğuna görə düşmənlərimizin təyziqləri ilə qarşı-qarşıya da qalmışdı. O, heç vaxt diletant sayağı, boğazdan yuxarı danışmaz, əsassız söhbətlərə görə mübahisə etməzdi.

Çöhrəsindəki təbəssüm, yumoristik söhbətləri hamını özünə bağlayırdı. Təriflərə qarşı kompleksi olduğundan həmişə diqqəti özündən yayındırıb, gülüş, təbəssüm yaradan, özüylə bağlı gülməli hadisələrə üstünlük verərdi. Atası Səfəralı müəllim uzun müddət Naxçıvanda yüksək vəzifələrdə çalışmışdı. Hətta Naxçıvanda ilk dəfə televiziya yarananda komitə sədri də işləmişdi. Şair ruhlu Səfəralı müəllim həm də bir neçə kitabın müəllifi olmuşdur. Atasının yaradıcılığı ilə bağlı bir neçə dəfə ona suallarda ünvanlamışdım. Bir dəfə soruşdum ki, Nazim müəllim, Səfəralı müəllim çox bilikli, dünyagörüşlü birisi olub. Onun bu qədər bilik dairəsi hardan qaynaqlanır? O, isə dedi ki, atam folklorumuzu, adət-ənənələrimizi çox yaxşı bilirdi. Bu istedad, bu qabiliyyət Nazim müəllimə də keçmişdi. Deyə bilmədiyi, ürəyində saxladığı, tədqiq etmək istədiyi nə qədər arzusu yarıda qaldı. Əgər onun keçdiyi ömür yoluna baxmaq, ömür kitabını və-

fiə edib və coğrafiya üzrə fəlsəfə doktoru elmi adını alıb.

1994-cü ildə Naxçıvan şəhər Məclisinin, 2005-ci ildə III çağırış, 2010-cu ildə IV çağırış, 2015-ci ildə V çağırış və 2020-ci ildə VI çağırış Naxçıvan MR Ali Məclisinin deputatı, Avropa Şurası Regional və Yerli Hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyətinin üzvü olub. Naxçıvan MR-in əməkdar müəllimi olan Nazim Bababəyli "Tərəqqi" medalı, "Akademik Plyuqin" medalı və "Akademik H.Əliyev adına döş nişanı" ilə təltif olunub. 269 elmi məqalənin, o cümlədən, 6 monoqrafiyanın, ali məktəblər üçün bir neçə proqramın müəllifidir.

Qeyd edək ki, Nazim Bababəyli 2010-cu ildən Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin Coğrafiya kafedrasının dosenti, 2003-cü ildən 2016-cı ilədək həmin kafedranın müdiri vəzifəsində işləyib.

Bəli, zalım əcəl bizdən özümüzə ideal saydıqlarımızı, sevib dəyər verdiklərimizi cismən ayıra bilər. Amma həmin İdeal sayılanlar bizim yaddaşımızda, qəlbimizdə, özlərinin xeyirxah və gözəl əməlləri ilə böyük yer ediblər ki, həmişəlik tutduqları yerlərdə qalırlar. Onların yeri nə dolur, nə də ki, başqaları ilə əvəz olunmur. Bu gün yeri hər yerdə görünən, əvəzi olmayanlar arasında siz də varsınız Nazim Bababəyli. Titullarınız, mükafatlarınız, fəxri adlarınız çoxdur. Amma fəth etdiyiniz, əbədi rəğbətini qazandığınız könüllər onlardan da çoxdur. Yeriniz cənnət, ruhunuz bir daha şad olsun əziz müəllimimiz.

***Müzəffər Əsgərov***
***Vaqif Agalarov***
***Naxçıvan televiziyasının əməkdaşları***

TƏRS BAXIŞ+ÖZƏL

# Amulinin "qeyrəti", yoxsa..?

## Beynəlxalq aləm həyəcan təbili çalmalıdır!

Azərbaycanın Tehrandakı səfirliyinə edilən terror hücumunun əsasında bilavasitə ölkəmizin regionda artan yeri və roluna qarşı təzyiq rıçağından istifadə edilməsi danılmaz



bir faktdır. Tehranda oturan fars-şovinist rejiminin xüsusilə, özünü "İslam Respublikası" adı altında pərdələyərək Cənubi Azərbaycanda yaşayan soydaşlarımıza qarşı açıq diskriminasiya siyasəti yürütməsi də bu çirkin siyasətin tərkib hissəsi olaraq görünməkdədir.

Uzun illər boyu azərbaycanlı soydaşlarımızı "pis və murdar türk" kimi mətbuatda və s. məkanlarda təhqirlərə məruz qoyanların əsas qorxusu isə bu olub ki, "İran" adlı ölkədə yaşayan və davamlı olaraq təqiblərə, təzyiqlərə məruz qalan 40 milyonluq Azərbaycan türkü əvvəl-axır bir gün ayağa qalxacaq



və öz azadlığını, hürriyyətini tələb edəcək, molla rejiminə qarşı sinə gərəcək - edamlara, uzunmüddətli həbslərə, döyülmələrə, vəhşiliklərə rəğmən!

## Təbrizlə Bakının bir araya gəlməsi gününə tərəf böyük və geriyə çəkilməyəcək addım atılıb

Təbii ki, bu məsələdə rəsmi Bakının da öz yurddaşlarını, soydaşlarını tənha qoyma-



yacağı faktı fars-molla rejiminin diqqətinə saxlanılırdı. Bu rejim illər uzunu yürütdüyü anti-Azərbaycan siyasətinə qarşı güclü partlayışın baş verəcəyini çox gözəl bilirdi və bu gün həmin an yetişib - Təbrizlə Bakının bir araya gəlməsi gününə tərəf böyük və geriyə çəkilməyəcək addım atılıb.

O cümlədən, bir müddət əvvəl Cənubi Azərbaycan torpaqlarımızda baş verən güclü, dağıdıcı zəlzələdən çarəsiz qalmış soydaşlarımıza qarşı fars-molla rejimi tərəfindən göstərilən biganəlik də məhz Tehrandakı səfirliyimizə edilən qanlı terror hücumunun tərkib hissəsidir. Daha dəqiq desək, bu olayların hər birinin bir-birinə olan bağlantıları ilə ortadadır. Və nə qədər bu rejimə bağlı olan, özlərini "azərbaycanlı" adlandıran xainlər toplumu istər baş vermiş terror olayını "məişət zəminində yaşanmış hadisə" kimi təqdim etməyə cəhd göstərəcəksə bir o qədər də özünü daha çox ifşa etmiş olacaq. Misal üçün, Ərdəbilin baş mollası Seyid Həsən Amuli kimi...

## Xoyda, Makuda yaşanan dəhşətli zəlzələdən sonra soyuq və qarlı, şaxtalı havada küçələrdə qalan ana-bacılar, körpə uşaqlar, qocalar onun dediyi qeyrət mücəssəməsinə aid deyilmi?!

Bu xain ünsür özünün tvitter səhifəsində sözügedən terror olayını "qeyrət" (???!!!) məsələsi kimi ictimai rəyə sırıyır. Təkcə onun sərsəm və əsassız olaraq iddia etdiyi bir neçə cümləsinə diqqət yetirək. SİTAT: "Azərbaycan səfirliyində baş verən hadisə qəbuledilməzdir amma, "azərbaycanlı qeyrət ruhiyyəsinin" nəticəsidir... Xanımının səfirli-


عاملی، خطیب جمعه اردبیل: ...
khabaronline.ir
AZAD İRAN

عاملی، خطیب جمعه اردبیل: آنچه در سفارت آذربایجان اتفاق افتاد؛ مورد تایید نیست، اما نتیجه «روحیه غیرتی آذری» است

ایسنا نوشت: آیت‌الله عاملی گفت: وقتی می‌بیند زنش با همکاری سفارت در آذربایجان است و فرزندانش بی مادر مانده‌اند و زن نیز هنوز زن اوست اما خانواده را ترک کرده او شدیداً غیرتی می شود و یک تصمیم اشتباه می گیرد. ما کار او را اصلاً تایید نمی کنیم ولی باید بپذیریم که وقتی غیرت ناموسی غلیان بکند موجب خطا هایی هم می شود.

آیت الله سید حسن عاملی ۱۴ بهمن در خطبه‌های نماز جمعه این هفته شهر اردبیل اظهار داشت: ایام رجب ایام بسیار مبارک و سرنوشت ساز است، این فرصت ها را باید غنیمت دانست.

وی با اشاره به حوادث اخیر رخ داده در جمهوری آذربایجان، خاطر نشان کرد: هزار سال است که ما با آذری های آن طرف ارس برادرانه زندگی کرده ایم، در شادی آنها شاد بوده ایم و در غم آنها

yin köməyi ilə Azərbaycanda olduğunu, uşaqlarının anasız qaldığını və qadının hələ də həyat yoldaşı olduğu halda ailəni tərk etdiyini görəndə həddindən artıq qısqanclıq hissi keçirir və yanlış addım atır. Biz onun bu hərəkətini qətiyyətlə pisləyirik, amma qəbul etməliyik ki, namus-qeyrət hissi güc gələndə səhv addımlar atmaqla nəticələnə bilir".

**FOTODA: Xoyda yaşayan soydaşlarımız zəlzələdən sonra Tehran rejiminin biganəliyi ilə üzləşiblər**



Reallığa qalanda belə bir gülünc və istehzalı bir "bəyanatla" Tehranın rəsmi "İSNA" agentliyinə danışan Amuliyə belə bir sual ünvanlana bilər - bəs Xoyda, Makuda yaşanan dəhşətli zəlzələdən sonra soyuq və qarşı, şaxtalı havada küçələrdə qalan ana-bacılar, körpə uşaqlar, qocalar onun dediyi qeyrət mücəssəməsinə aid deyilmi?! Cənab Amuli, sənin qeyrətin necə yol verdi ki, sən ümumiyyətlə, bu barədə bir kəlmə də söz danışmadın və terror hadisəsinə öz təbirincə "məişət" donunu geyindirməyə cəhd göstərirsən? Bəs hanı sənin doğru-dürüst qeyrətin? YOXDUR!

## "İran" adlı həbsxana!

*FOTODA: Azərbaycanlı həkim Fərhad Maithaminin həbsxanadakı vəziyyəti*

Bu gün "İran" adlandırılan həbsxanada minlərlə azərbaycanlı öz hürriyyətlərini,



azadlıqlarını tələb etdiklərinə görə ağır işgəncələrə məruz qalırlar. Amuli və onun kimilərinin isə öz soydaşlarının halları qətiyyən maraqlandırmır. Məsələn, Kərəc şəhərinin Rəcaişəhr zindanında edam hökmü kəsildiyinə etiraz əlaməti olaraq aclıq aksiyası keçirən həkim Fərhad Maithaminin fotolarının dərci bütün vəziyyəti öz çılpaqlığı ilə ortalığa qoyur.

*Luk Kofi "Arab News" saytındakı məqaləsində yazıb: "Amma yaxşı olar ki, dünya İranın şimal sərhədlərinin də qayğısına qalsın"*

**FOTODA: "Hadson" İnstitutunun baş eksperti Luk Kofi**

Bu arada, dünya birliyinin də qınadığı terror hücumu həm də onu sübut edir ki,




Tehrandakı olay beynəlxalq aləm üçün həyəcan siqnalı olmalıdır. "Hadson" İnstitutunun baş eksperti Luk Kofi "Arab News" saytındakı məqaləsində yazıb: SİTAT: "Beynəlxalq ictimaiyyətin İrana diqqətinin böyük hissəsi əsasən onun Yaxın Şərqdəki siyasətinə yönəldiyi halda, Tehran da əsrlər boyu Cənubi Qafqazda rol oynayıb".

O, hesab edir ki, bu gərginliyin əsas səbəbi 1828-ci ildə Rusiya və İran imperiyaları arasında bağlanmış Türkmənçay müqaviləsidir ki, Araz çayı boyunca iki dövlət sərhədini müəyyən edir. SİTAT: "İranda milyonlarla azərbaycanlı yaşayır və hər zaman müstəqillik və muxtariyyət çağırışları eşidilir... Bakı vəziyyəti yaxşı bilir".

"Hadson" analitik mərkəzinin amerikalı tədqiqatçısı Azərbaycan-İran münasibətlərindən və iki ölkə arasındakı gərginlikdən bəhs edir, həmçinin İslam Respublikasının Qafqaz və Yaxın Şərq regionunda sabitliyi pozan, bir çox hallarda isə təhdid xarakterli, müharibə çağırışlı hərəkətlərinə işarə edir.

**FOTODA: Fars-molla rejiminin terrorçuları**



Luk Kofi sonda belə nəticəyə gəlir ki, dünyanın diqqəti hələ də Tehranın Suriyadakı addımlarına, Şimali İraqa raket hücumlarına, Körfəzdə sabitliyi pozan terror aktlarına və Rusiyanın Ukraynaya qarşı İran dronlarından istifadəsinə yönəlib. "Amma yaxşı olar ki, dünya İranın şimal sərhədlərinin də qayğısına qalsın", deyə o bildirib.

Bəli, bu çox doğru və hazırkı məqamda çox məntiqli bir çağırışdır. Əgər Tehran rejimi öz cinayətkar xislətinin coğrafi məkanını daha da genişləndirməyə cəhdlərini davam etdirərsə sonradan həmin cəhdlər regiondan da kənara sıçraya bilər. Ona görə də, nə qədər gec deyil, lazımlı addımın atılması zəruridir!

***Rövşən RƏSULOV***

***Övladlığa uşaq götürən valideynlər çox vaxt onlara bunu necə etiraf edəcəklərini bilmirlər. Amma əlbəttə bir gün bütün uşaqlar kim olduqlarını anlamaq üçün haradan gəldiklərini soruşacaqlar. Unutmayın ki, bu, uşaqlarınızın həyatında ən vacib andır və bu vəziyyətdə səhv etmək çox risklidir. Uşağınıza onun övladlığa götürüldüyünü söyləmək üçün o doğru vaxt çox çətin gəlir. Amma yaxşı olar ki, uşağa vəziyyət mümkün qədər tez izah edilsin.***

# Azərbaycanda övladlığagötürmə qaydası necədir

Övladlığa götürülmüş uşaqlar müsbət hiss etmələri, nə olursa-olsun qəbul olunduqları və sevildikləri üçün yaxınları tərəfindən güvənə ehtiyac duyur.

Bəzi uşaqlar üçün övladlığa götürüldüklərini öyrənmək onlarda çaşqınlıq yaradır. Öz anası və atası haqqında "Kimdirlər?", "Haradadırlar?" və "Niyə məni tərk ediblər?" kimi suallar verə bilərlər. Bu sualların bəzilərinə cavab verməkdə çətinlik çəkə bilərsiniz və bir neçə dəfə övladlığa götürmə haqqında danışmağı dayandıra bilərsiniz.

Övladlığa götürülən uşağa lazımdır:

- Özəl olduqlarını hiss etmək.
- Ona bioloji valideynlərinin onu niyə tərk etdiyini anlamağa kömək edin.
- Onu nə qədər sevdiyinizi xatırladın.
- Uşağınıza bioloji valideynləri haqqında pis hiss edə biləcək zorakılıq və ya laqeydlik kimi zərərli təfərrüatları söyləməyin.

Uşağınız böyüdükcə övladlığa götürmə ilə bağlı daha çox sual verəcək. Bu, onların inkişafının normal bir hissəsidir və valideynlər qəzəblənmədən bu sualları həll etməlidirlər. Həmişə pozitiv və mümkün olduqda suallara cavab verməyə hazır olmaq lazımdır.









Övladlığa götürmə haqqında uşağınıza məlumat vermək üçün məsləhətlər:

- Uşağınıza onu körpə vaxtından övladlığa götürüldüyünü deyin və onun hər hansı ailə üzvü və ya dostlarından məlumat almasına mane olun.
- Uşağınızla nə üçün sizinlə yaşadığı və niyə anadan olan valideynləri ilə qala bilməyəcəyi barədə danışarkən çox pozitiv olun. Uşağınızın keçmişi haqqında hekayəni sadə dildə danışın ki, o bunu başa düşsün.
- Uşağınıza övladlığa götürülmüş uşaqların bioloji valideynləri olan uşaqlardan daha az sevildiyi kimi halların olmadığını izah edin.
- Uşağınıza onu övladlığa götürdüyünüz zaman nə qədər həyəcanlı olduğunuzu və onun sizin və ailəniz üçün nə qədər xüsusi olduğunu söyləyin.
- Övladlığa götürmə haqqında danışarkən uşağınızla çox müsbət davranın ki, o övladlığa götürülməyi şəxsiyyətinin normal bir hissəsi kimi qəbul etsin.
- Övladlığa götürmə ilə bağlı çox sual verəndə, çaşqın olduqda övladınıza qarşı həssas olun.
- Uşağınız övladlığa götürmə haqqında dəfələrlə danışmaq istəyəndə səbirli olun və özünüzə güvənin.
- Övladlığa götürmə mövzusunda uşağınızla danışmaqda çətinlik çəkirsinizsə, bunu çox büruzə verməməyə çalışın. Uşağınız bunu dərhal anlayacaq və övladlığagötürmənin pis bir hadisə olduğunu düşünməyə başlayacaq.
- Uşağınıza həqiqəti söyləyin. Lakin ehtiyatlı olun. Çünki, çox kiçik olsa, bəzi məlumatlar ona çox zərər verə bilər. Ona görə də bəzi məlumatları sonraya saxlayın.
- Söhbətə başlamazdan əvvəl uşağınızın verə biləcəyi bəzi suallar və cavabların nə ola biləcəyini düşünün.
- Telefon zəngləri və ya heç bir fasilə olmadan uşağınıza bütün diqqətinizi verə bildiyinizə əmin olun.
- Əgər uşağınız əsəbiləşirsə, bunun normal reaksiya olduğunu unutmayın.

Övladlığa götürülmüş uşaq övladlığa götürülmüş ailəsi ilə eyniləşir. Lakin onun da özünəməxsus şəxsiyyəti var.

Bəs, Azərbaycanda övladlığa uşaq götürmə qaydası necədir?

SİA mövzu ilə bağlı araşdırma aparıb.Bir çox cütlük bioloji övlad sahibi ola bilmədiyi üçün və ya sadəcə olaraq valideynsiz bir körpəyə ev yaratmaq üçün uşaq övladlığa götürür.

Hər bir insanın əsl valideynlərinin kim olduğunu və böyüdüyü insanların əsl valideyn olub-olmadığını bilmək hüququ var. Valideynlər bunu vacib və lazımlı görməsələr də, uşağa doğrular deyilməlidir.

**Bu uşağın neçə yaşında deyilməlidir?**

Uşaq başqasından həqiqəti eşitməmiş və ya hiss etməmişdən əvvəl izah etmək çox vacibdir. Uşaq 3 yaşından etibarən, xüsusilə mütəxəssisin iştirakı ilə lazımi izahatı anlaya bilər. Ancaq qavrayışın artdığı 6-7 yaş daha uyğun ola bilər. Əhəmiyyətli olan izahı uyğun dildə və uşaq həddi-bülüğa çatmamışdan əvvəl etməkdir. Bu açıqlama 10-12 yaşından əvvəl edilməlidir. Yeniyetməlik dövründə aşkar edildikdə, uşaq davranış problemləri və evdən qaçmaq kimi həddindən artıq reaksiyalar göstərə bilər.

Uşaq psixologiyası üzrə ixtisaslaşmış psixoloq və ya psixiatrla danışmaq ailənin və uşağın bu prosesini asanlaşdırır, onları təhlükələrdən uzaqlaşdırır. Mümkün problemlərin qarşısını almaq və ya asanlıqla aradan qaldırmaq üçün bütün proses boyunca uşağı izləmək vacibdir.

**Uşaq həqiqətləri öyrəndikdən sonra necə reaksiya verə bilər?**

Bu halda ən çox görülən reaksiya narahatlıqdır. Bu narahatlığı aradan qaldırmaq üçün valideynlər hər zaman onun yanında olacaqlarını vurğulamalıdırlar. Əgər uşaq əsl valideynləri ilə maraqlanırsa valideynlər onları heç vaxt görmədiklərini, harada olduqlarını bilmədiklərini söyləyə bilərlər. Mütəxəssis dəstəyi, uşağın prosesdə verəcəyi çətin suallara və ya şərhlərə reaksiyalar baxımından vacibdir. Ən əsası odur ki, uşaq öz evində xoşbəxt olsun, valideynlərinə güvənsin və özünü oraya aid hiss etsin.

Vəkil Turan Abdullazadə: "Ailə Məcəlləsinə əsasən, övladlığa götürməyə yetkinlik yaşına çatmayanlar barəsində və yalnız onların mənafeyi naminə uşağın doğumu müvafiq icra hakimiyyəti orqanında qeydə alındıqdan sonra yol verilir.

Bir uşaq iki şəxs tərəfindən (ər-arvaddan başqa, onlar istisnadır) övladlığa götürülə bilməz. Bir qayda olaraq qardaş və bacıların müxtəlif şəxslər tərəfindən övladlığa götürülməsinə yol verilmir.

Qanunvericiliyə əsasən, övladlığa götürmə üç mərhələdə həyata keçirilir:

1) övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uçota alınması;

2) övladlığagötürmənin uşağın mənafeyinə uyğunluğunun müəyyən edilməsi;

ARAŞDIRMA

Ardı Səh. 13

# Azərbaycanda övladlığagötürmə qaydası necədir

Əvvəli Səh.12

3) övladlığagötürmə barədə məhkəmə qərarının qəbul edilməsi.

118.3. Övladlığagötürmənin uşağın mənafeyinə uyğunluğu müvafiq icra hakimiyyəti orqanı tərəfindən 1 (bir) ildən çox olmayan müddətdə aşağıdakı qaydada müəyyən edilir:

övladlığa götürmək istəyən şəxslə (şəxslərlə) müsahibə aparılması; övladlığa götürmək istəyən şəxsin (şəxslərin) təlimlərə cəlb edilməsi; övladlığa götürmək istəyən şəxsə (şəxslərə) uyğun uşağın, övladlığa götürülən uşağa uyğun valideynin seçilməsi; övladlığa götürülən uşaqla övladlığa götürmək istəyən şəxsin (şəxslərin) uşağın yerləşdiyi müəssisədə görüşünün təşkili; övladlığa götürülən uşağın sınaq müddətində uşağı övladlığa götürmək istəyən şəxsin (şəxslərin) evində yerləşdirilməsi.

Valideyn himayəsindən məhrum olmuş uşaqların övladlığa götürülməsi, o cümlədən Azərbaycan Respublikasının vətəndaşı olan uşaqların əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən övladlığa götürülməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Müvafiq icra hakimiyyəti orqanı elektron informasiya sistemində uçota alınma ardıcıllığına uyğun olaraq seçilmiş övladlığa götürmək istəyən şəxslə (şəxslərlə) müsahibə keçirir, habelə onun maddi-məişət şəraitinin müayinəsini aparır.

Övladlığa götürmək istəyən şəxsin (şəxslərin) və övladlığa götürülən uşaqların hüquq və vəzifələri məhkəmənin uşağın övladlığa götürülməsinin müəyyən olunması barədə qətnaməsinin qanuni qüvvəyə mindiyi gündən yaranır.









Uşağın övladlığa götürülməsi vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı üçün müəyyən olunmuş qaydada qeydiyyata alınır. Övladlığagötürmə barədə ərizəyə müvafiq icra hakimiyyəti orqanının iştirakı ilə mülki prosessual qanunvericilikdə nəzərdə tutulmuş xüsusi icraat qaydasında baxılır.

Müvafiq icra hakimiyyəti orqanı övladlığagötürülən uşaq 18 yaşına çatanadək uşağın ailədəki vəziyyəti, əqli, fiziki, psixoloji və psixi sağlamlıq vəziyyətinin öyrənilməsi məqsədilə övladlığagötürmənin birinci ilində rübdə bir dəfə, növbəti illərdə ildə bir dəfədən az olmayaraq olaraq monitorinq aparır.

Övladlığagötürməyə, qəyyumluğa və himayəyə qəbul etməyə imkan verməyən xəstəliklərin siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur. Aralarında nikah olmayan şəxslər birlikdə eyni uşağı övladlığa götürə bilməzlər.

Ögey ata (ögey ana), habelə qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) istisna olmaqla, övladlığa götürmək istəyən nikahda olan şəxslərdən biri (ər-arvad) üçün aşağı yaş həddi 25, nikahda olmayanlar üçün 30 yaşdır.

Ögey ata (ögey ana), habelə qohumları (bacı-qardaş, nənə-baba, valideynlərinin bacıları, qardaşları, onların övladları) istisna olmaqla, övladlığa götürmək istəyən nikahda olmayan şəxslə (şəxslərlə) övladlığa götürülən uşağın yaş fərqi 18-dən az olmamalıdır.

Uşağın övladlığa verilməsi zamanı bu Məcəllənin 121.1-ci və 121.2-ci maddələrinin tələbləri nəzərə alınmaqla, nikahda olan şəxslərə (azı 3 il (yaşı 35-dən yuxarı olan ər-arvad üçün 1 (bir) il) müddətində nikahda olan Azərbaycan Respublikasının vətəndaşlarına, habelə yuxarı yaş həddi 55-dək olan şəxslərə üstünlük verilir.

10 yaşına çatmış uşaq övladlığa götürüldükdə, onun razılıq verməsi zəruridir. 7 yaşına çatmış uşaq övladlığa götürüldükdə, məhkəmələr tərəfindən onun fikri pedaqoji işçinin və ya psixoloqun iştirakı ilə öyrənilir və nəzərə alınır

Övladlığagötürmənin sirri qanunla mühafizə olunur.

Övladlığagötürmənin ləğv olunması məhkəmə qaydasında həyata keçirilir.

Övladlığagötürmə aşağıdakı hallarda ləğv edilir:

1) övladlığa götürənlər onlara həvalə edilmiş valideynlik vəzifələrini yerinə yetirmədikdə;

2) övladlığa götürənlər valideynlik hüquqlarından sui-istifadə etdikdə;

3) övladlığa götürənlər övladlığa götürülən uşağa qəddar münasibət bəslədikdə;

4) övladlığa götürənlər xroniki alkoqolik və narkoman olduqda.

Uşaq yetkinlik yaşına çatdıqda övladlığa götürmənin ləğvinə yol verilmir. Lakin övladlığa götürən, övladlığa götürülən və övladlığa götürülənin valideynləri (valideynlər sağdırsa, valideynlik hüquqlarından məhrum olunmamışdırsa, məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan hesab edilməmişdirsə) arasında qarşılıqlı razılığa əsasən övladlığa götürmənin ləğvinə yol verilir”.

***Ayşən Vəli***

SİYASİ RAKURS+ÖZƏL

# Ermənistanın xarici siyasət "strategiyası" - İkinci dəfə eyni səhv!

*Bu, İrəvana baha başa gələcək mümkün ehtimaldır*

**Ermənistanın son aylardakı xarici siyasət fəaliyyəti "dejavyü" effekti verir. Hətta belə desək, həmin "strategiya" 2020-ci ilin yaz və yay aylarında, daha dəqiq desək, müharibədən əvvəlki davranışlarını və bəyanatları xatırladır. 44 günlük müharibədə qazanılan qələbədən sonrakı proseslər də get-gedə bu amili daha çox qabartmağa başlayıb. Ermənistanın hərbi-siyasi rəhbərliyinin yenidən rəsmi Bakının səbri ilə oynamaq cəhdləri də belə qənaətə gəlməyə xeyli əsas yaradır.**



## Ermənistan yenidən 2020-ci ilin sentyabrın 27-ə qədərki ab-havaya geri qayıdıb və sülh prosesinin əldə edilməsinə əngəllər yaradır

Lakin İkinci Qarabağ müharibəsindən əvvəlki situasiyanı yenidən xatırlatmağa ehtiyac var. Misal üçün, 2020-ci ilin yazında Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupunun həmsədrləri ilə iki günlük görüşündən sonra Rusiyanın xarici işlər



naziri Lavrov bildirdi ki, danışıqlar masası ilə bağlı sənəd var və onun ətrafında müzakirələr davam edir.

Bu bəyanatın üzərindən keçən qısa müddətdən sonra Ermənistanın keçmiş xarici işlər naziri Mnatsakanyan heç bir sənədin olmadığını bildirməklə Lavrovu təkzib etdi. Əslində sözügedən həyasızlığın özü danışıqlardan imtina anlamını daşıyırdı. Və indi də - yəni danışıqlar masasında sülh müqaviləsi variantı olduğu, eləcə də hərəkətlərin məntiqi bütün vasitəçilərə aydın edildiyi bir vaxtda erməni tərəfi substantiv müzakirələrlə bağlı əvvəlcədən müəyyən edilmiş görüşlərdən hər vəchlə yayınır. Bu vasitə ilə isə sülh prosesinin əldə edilməsinə əngəllər yaradır.

## İran-Azərbaycan gərginliyi - Ermənistan quyruğunu suya sallayaraq balıq tutmağa cəhd göstərir, amma...

2020-ci ilin yayında isə Ermənistan həmin vaxtın real situasiyasında qarşıdurma mühitindən bəhrələnmək məqsədi ilə, eləcə də geosiyasi əhəmiyyətini artırmaq ümidi ilə Türkiyənin münasibətlərinin soyuq olduğu Şərqi Aralıq dənizi ölkələri - Misir, Yunanıstan, yunan Kipri və Fransa ilə fəal danışıqları aktivləşdirdi. Bu gün isə, yəni hazırda İranın Azərbaycanla münasibətlərini gərginləşdirdiyi bir zamanda Ermənistan necə deyərlər, quyruğunu suya sallayaraq balıq tutmağa cəhd göstərir, İrəvan Bakı ilə Tehran arasındakı ziddiyyətləri qırmızı xətt üzrə daha da gərginləşdirmək üçün özünü oda-közə vurur.

Həmçinin, 2020-ci ildə Ermənistan müharibədən əvvəlki vaxtlarında əlində olan bütün rıçaqlarından maksimum istifadə etməklə Azərbaycana qarşı təzyiqlərin artırılmasına can atırdı. Burada əsas məqsəd Bakının Qarabağ ermənilərinin subyektivliyi ilə razılaşmağa inandırması və artıq gorbagor edilmiş "status" formasını aktuallaşdırmağa səy göstərirdi. Və bütün bunlardan sonra 44 günlük müharibə öz sözünü dedi, Ermənistanın işğalçılıq siyasəti onun başının əzilməsi ilə nəticəsini tapdı. Amma...

Amma indiki bir zamanda, xüsusilə məğlub vəziyyətdə olduğu bir vaxtda İrəvanın yenidən baş qaldırmaq cəhdləri kənardan anlaşılmaz görünür.

## "Qurtuluş naminə ayrılıq" imitasiyası

Bu ölkənin dövlətçilik dayaqları demək olar ki, tamamilə sarsılıb, onun xəritədən silinmək təhlükəsi belə mövcuddur. Fəqət, Ermənistan rəhbərliyi guya "müvəqqəti imtina" məsələsini ortaya atmaqla "qurtuluş naminə ayrılıq" imitasiyasını önə sürür. Daha dəqiq desək, İrəvan Qarabağ ermənilərinə eyham vurur ki, onlara heç cür kömək etmək gücündə deyil və Azərbaycan torpaqlarına iddia məsələsi hələlik saxlanılır sonrakı müddətlərə və s (?!)

Ermənistanın faktiki olaraq ikinci dəfə eyni səhvini təkrarlamaq cəhdi, yaxud özünü ikinci dəfə palçığa



batırması faktı ortadadır. Hətta belə desək, İkinci Qarabağ müharibəsindən əvvəl baş vermiş Tovuz təxribatının təkrarlanma ehtimalı da mövcuddur. Belə olan halda isə Azərbaycanın yerdə qalan kiçicik bir problemi bu dəfə birdəfəlik (!) həll etmək şansı daha da çoxalmış olur. Əbəs deyil ki, həmin mövcudluğu elə mümkün hərbi toqquşmaların olacağı barədə İrəvana xəbərdarlıqlar edən və bu toqquşma ehtimallarının qarşısını hər-hansı yolla almağa çalışan vasitəçilər - Aİ-nin Ermənistandakı missiyası, ABŞ və Rusiya siyasi diplomatik dairələri də çox gözəl görürlər, hiss edirlər. Çox yəqin ki, Ermənistan bu dəfə ümumiyyətlə qurtula bilməyəcək və qarşıdakı yaxın müddətlərin birində hər şey onun üçün çox pis nəticələnəcək.

*Rövşən RƏSULOV*

# Rusiyalı ekspert: "Ermənistandakı Qərb missiyası sülh razılaşmasına mane olacaq"

Anton Bredixin: "Qarabağ ermənilərinin blokadaya alınması ilə bağlı söhbətlər tamamilə cəfəngiyyatdır"

Rusiyalı ekspert, Etnik və Beynəlxalq Araşdırmalar Mərkəzinin elmi direktoru, "Arxont" jurnalının baş redaktoru, Anton Bredixin "Caliber" analitik mərkəzinə müsahibəsində Qarabağ ətrafındakı vəziyyəti tətlil edib. Müsahibəni oxucularımıza təqdim edirik.



***- Aİ-nin uzunmüddətli missiyasının Ermənistana gözlənilən gəlişinə münasibətiniz necədir? Ermənistan hakimiyyətinin bununla bağlı hansı planları var?***

- Avropa missiyasının Ermənistanda yerləşdirilməsi bütün region üçün qlobal çağırışdır. Bu, təkcə Azərbaycan üçün deyil, həm də İran və digər ölkələr üçün təhlükədir, çünki mülki missiya bəhanəsi ilə Ermənistan ərazisinə təkcə Aİ deyil, həm də NATO hərbçiləri gələcək. Avropa İttifaqının hərbçilərinin mövcudluğu NATO ordusunun mövcudluğuna bərabərdir. Bu, artıq o deməkdir ki, Ermənistanda Rusiya və onun müttəfiqlərinə düşmən olan hərbi kontingent yerləşdirilib ki, bu da, şübhəsiz, Moskva üçün ciddi çağırışdır. Bütün bunlardan belə nəticə çıxır ki, Nikol Paşinyan yolverilən hədən kənara çıxıb və bu, onun rejimi üçün ən gözlənilməz nəticələrə gətirib çıxara bilər.

***- İrəvan Moskvanın KTMT missiyasının şərti olaraq Azərbaycanla birgə yerləşdirilməsi təklifinə məhəl qoymamaqda davam edir. Sizcə, Moskva Rusiya hərbi bazasının Gümrüdən çıxarılması çağırışlarına cavab da daxil olmaqla hansı addımları atacaq?***

- Rusiya Ermənistan ərazisinə heç bir formatda yeni qoşun yeritməyəcək. Eyni zamanda, Ermənistan hakimiyyətinin istəyib-istəməməsindən asılı olmayaraq, Rusiya sərhədçiləri və Gümrüdəki Rusiya hərbi bazası yerində qalacaq. Rusiyanın Ermənistanda öz qoşunlarını saxlaması regionun sabitliyini təmin etmək üçün vacibdir. Ona görə də biz ora Avropa missiyasının gəlməsi ilə bağlı münaqişə potensialının və mümkün toqquşmaların artmasını gözləyirik.

Digər tərəfdən, xatırlatmaq istərdim ki, postsovet məkanında artıq belə bir təcrübə olub ki, Rusiya bazaları Amerika bazaları ilə əvəzlənib, məsələn, Qırğızıstanda. Bu nəyə gətirib çıxardı? Üstəlik, respublikada davamlı olaraq "narıncı" inqilablar həyata keçirilməyə başladı və sonda başa düşdülər ki, Amerika yolu ilə getməyə dəyməz. Ona görə də respublika KTMT-yə getdi. Hesab edirəm ki, Ermənistan eyni dırmıq üzərində addımlamamalı, Amerika QHT-lərinin bəzi anti-Rusiya çıxışlarına baxmayaraq, Gümrüdəki bazasının və Rusiya Federasiyasının sərhəd xidmətinin ölkədə qalacağını dərk etməlidir.

***- Erməni tərəfi azərbaycanlı ekoloqların Laçın yolunda dinc aksiyası ilə bağlı "120 min Qarabağ ermənisinin blokadaya alınması" mifini dünyaya sırıyaraq ənənəvi olaraq özünü qurban kimi göstərməyə çalışır. Bu cür yanlış mövqeni necə şərh edərdiniz?***

- Ermənistan tərəfinin bütün dünya qarşısında özünü qurban kimi təqdim etmək cəhdi Paşinyanın hazırkı siyasətinin tərkib hissəsidir. Elan edilən rəqəm siyasi simvoldur, Ermənistan hakimiyyətinin informasiya müharibəsində istifadə etdiyi şüardır. Şübhəsiz ki, bunlar yalan statistika və tamamilə cəfəngiyyatdır. Reallıq ondan ibarətdir ki, Azərbaycan və Rusiya sülhməramlıları regionda əlverişli atmosferin saxlanmasına, enerji, kənd təsərrüfatı və humanitar sahələrdə heç bir maneənin olmamasına birgə töhfə verirlər.

***- Bakı ilə İrəvan arasında sülh müqaviləsinin bağlanması şanslarını necə qiymətləndirirsiniz?***

- Fikrimcə, indiki şəraitdə sabitliyi poza biləcəyi ehtimal olunan Aİ faktoru səbəbindən Bakı ilə İrəvan arasında sülh müqaviləsi yenidən bir müddət unudulmalı olacaq.

***- Ermənistan-Türkiyə münasibətlərinin normallaşması barədə nə düşünürsünüz?***

- Ermənistanla Türkiyə arasında müəyyən müsbət dəyişikliklər mümkündür, lakin onların erməni cəmiyyəti tərəfindən ciddi qəbul ediləcəyi dəqiq deyil. Ona görə də danışıqlarda fəsadların ola biləcəyi istisna edilmir.

***- Yaxın gələcəkdə Cənubi Qafqazda hansı siyasi proseslər görünür?***

- Təəssüf ki, təkrar-təkrar yaranan çoxsaylı gərginlik faktorları səbəbindən Cənubi Qafqazda yaxın gələcəkdə hərbi toqquşmalar istisna edilmir.

*Tərcümə -E. Bayramlı*

# Şərikli çörək

## ESSE

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Uşaq və gənclərin fiziki və mənəvi inkişafı” çərçivəsində hazırlanıb.*

**Yaddaşımdan heç vaxt silinməyən hadisələrin çoxu "qaranlıq 90-lar" adlandırdığım dövrə aiddir. Ötən əsrin son on illiyində- Sovet hakimiyyəti dağılandan sonra böhran, aclıq, qıtlıq və yoxsulluq baş alıb gedirdi. Ölkə iqtisadiyyatı dayanmış, hər yerdə xaos hökm sürürdü. Respublikalararası ticarət dayandığından və Ermənistanla müharibə şəraitində olduğumuzdan da vəziyyət ikiqat ağır idi. Respublikamız taxıl tələbatının çoxunu idxal hesabına təmin edirdi ki, idxalda da ciddi çətinliklər var idi, üstəlik, ölkənin dövlət büdcəsi boş idi və xaricdən nəsə almaq da çətinləşmişdi.**





Tovuz şəhərindəki çörək zavodu un olmadığına görə işləmirdi. Çörəyi alverçilər ölkənin o başından-paytaxtdan sərnişin qatarları ilə kisələrdə daşıyıb gətirirdilər və ikiqat qiymətə satırdılar. Bir neçə kiçik çörək sexi isə haradansa tapıb gətirdikləri az miqdarda undan çörək bişirirdi və onların qarşısında uzun çörək növbələri olurdu. Şəhərin əsas çörək təminatı Bakı-Qazax, Bakı-Tbilisi qatarları idi.

Bir gün səhər tezdən dəmiryol vağzalına çörək almağa gedirdim. Soyuq qış səhəri minlərlə insan həsrətlə qatarı gözləyirdi ki, bəlkə bir-iki çörək ala bildi. Vağzalın hər iki mərtəbəsindəki zallar ağzınadək dolu olduğundan xeyli adamla birgə mən də perronda bürüşüb "çörək qatarı" gözləyirdim.

Nəhayət, uzaqdan qatar göründü. İzdiham hərəkətə gəldi hamı perrona yaxınlaşdı. Qatar dayanan kimi alverçilər vaqonlardan kisələri düşürdülər. Dərhal hərəsinin başının üstünü onlarla adam aldı və mübarizə başladı. Çörək uğrunda elə bir amansız rəqabət gedirdi ki... kənardan bu rəzaləti heyrətlə seyr edirdim. Qadınları itələyib irəli soxulmağı və çörəyi göydə qaparaq evə gətirməyi bacara bilməyəcəyimi anlamışdım. Bundansa ac qalmaq yaxşı idi. Dəhşətli mübarizə 15 dəqiqə davam etdi. Bəziləri 4-5 çörək ala bilmiş, bəziləri mənim kimi 1 ədəd də ala bilməmiş adamlar vağzalı boşaltdılar.






Mən də kor-peşman geri qayıdarkən bizimlə bir binada yaşayan qonşu qadın məni görüb soruşdu ki, sən niyə əliboş qayıdırsan. Dedim nə bilim, adam çox idi, yaxınlaşa bilmədim. Qadın üzümə baxıb düşündü və əlindəki 2 çörəkdən birini mənə uzatdı: götür bala, evə əliboş getmə, biz biri ilə keçinərik birtəhər. Almaq istəmədim, amma zorla verdi, mən də çörəyin pulunu zorla verib evə gəldim.

Yolda beynimdə sanki qəfil ildırım çaxdı. Bir neçə il qabaq elə həmin bu vağzalla üzbəüz yaşayan nənəmlə bir söhbətimiz yadıma düşdü. O dəqiqələri dəqiqliklə xatırlayıram...

Təxminən 87-ci il. Nənəm televiziyada xəbərlərə baxırdı. Süjetlərin birində Bakıdakı zibilliklərdə xeyli ərzağın və çörəyin atılmasını göstərir və deyirdilər ki, çox uzun və ağır əməklə başa gələn müqəddəs nemətləri belə israf edib zibilqabına atmaq olmaz. Nənəm başını bulayıb dedi: Camaat qudurub bala, bir gün gələcək o çörəyə həsrət qalacaqlar. Bunlar müharibə dövrünü görməyib bilələr ki, çörək nə deməkdir.

O vaxt bu sözlərə əhəmiyyət verməmişdim. Çünki ərzağın bol və ucuz vaxtı idi. Heç ağlıma gəlməmişdi ki, nə vaxtsa adamlar ərzaq, xüsusən də çörək tapa bilməyə. Bu söhbətin üstündən cəmi bir neçə il keçmişdi və mən 1 çörək uğrunda apara bilmədiyim mübarizədə məğlub olub, soyuq qış küçəsində evə qonşu qadının verdiyi çörəklə qayıdarkən, bu söhbəti heyrət içində xatırladım. İsrafçılığın nə qədər alçaq hərəkət olduğunu o gün vağzaldan evədək olan 5 dəqiqəlik yolda bütün mənası ilə anladım.

O vaxtdan 30 ildən çox keçir. Nəsə bişirəndə yoldan keçəni belə dəvət edib qarşısına bişirdiyindən qoyan nənəm 20 ildən çoxdur dünyasını dəyişib. Lakin onun o sözləri o dövrdən hərfbəhərf xatırladığım yeganə cümlədir. Hələ də israfçılıq edən qohum və dostlarla mübahisə edirəm buna görə. Çünki onlar o günləri ya görməyiblər, ya da görüb, amma unudublar.

Unutqanlıq pis şeydir- qıtlıqdan, aclıqdan da pis.

Tarix unudanları sevmir.

Heç vaxt unutmayın.

**_Elçin_**

SON SƏHİFƏ

# Səs

7 fevral
2023-cü il

# Media subyektlərinin bu xidmətləri vergilərdən azad edilir



Azərbaycanda media subyektlərinin bir sıra xidmətləri vergidən azad edilir. SİA-nın məlumatına görə, bununla bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünən keçirilən iclasında müzakirə edilən Vergi Məcəlləsinə dəyişiklik müzakirəyə çıxarılıb.

Dəyişikliyə əsasən, media subyektləri (audiovizual media subyektləri istisna olmaqla) tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsi, habelə Azərbaycan Respublikasında daimi nümayəndəlik yaratmayan qeyri-rezident şəxslər tərəfindən media subyektlərinə (audiovizual media subyektləri istisna olmaqla) media fəaliyyəti ilə bilavasitə bağlı olan işlərin görülməsi və xidmətlərin göstərilməsi - 2023-cü il yanvarın 1-dən 3 il müddətinə vergidən azad edilir.

Dəyişikliklər "Media haqqında" Azərbaycan Respublikası Qanununun 4-cü maddəsində medianın inkişafının təşviqi və media subyektlərinin fəaliyyətini stimullaşdırması nəzərdə tutulur. Həmin qanuna uyğun olaraq Azərbaycan Respublikasının Vergi Məcəlləsinə dəyişikliklər edilməsi təklif olunur.

## "Nar"ın dəstəyi ilə Fibonacci Games oyunlarının finalı keçirilib

"Nar"ın dəstəyi ilə ölkənin ilk intellektual-əyləncəli oyunu olan Fibonacci Games oyunlarının 9-cu mövsümünün finalı keçirilib. Artıq 6-cı ildir ki, hər həftə yüzlərlə intellektual asudə sevənləri Fibonacci Games oyunları bir yerə yığır. Bu mövsümün final oyununun qaliblərinə isə mobil operator "Nar" dəyərli hədiyyələr təqdim edib.

Qeyd edək ki, intellektual hərəkatın kütləviləşməsində böyük rol oynayan Fibonacci Games oyunlarının bu mövsümündə 40-dan çox komandaya müxtəlif sahələrdən olan suallar verilib. Yarışın həm Azərbaycan, həm rus dillərində olması daha çox insanın bir araya gəlməsini təmin edib. Hər zaman müasir trendləri izləyən "Nar" mütərəqqi və proqressiv gənclərə dəstəyini bu cür intellektual layihələrlə ifadə edir. Mobil operatorun bu istiqamətdə gördüyü işlərlə nar.az/projects səhifəsindən tanış ola bilərsiniz.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 3 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

## Polis hava şəraiti ilə bağlı sürücü və piyadalara müraciət etdi!

**Baş Dövlət Yol Polisi İdarəsi əlverişsiz hava şəraiti ilə bağlı hərəkət iştirakçılarına müraciət edib. SİA xəbər verir ki, müraciətdə deyilir: "Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə fevral ayının 7-si axşamdan başlayaraq həftə sonunadək ölkə ərazisində havanın küləkli və yağıntılı olacağı, fasilələrlə sulu qar və qar yağacağı, dağlıq və dağətəyi rayonlarda yolların buz bağlayacağı gözlənilir.**



Baş Dövlət Yol Polisi İdarəsi qeyri-sabit hava şəraiti ilə əlaqədar sürücülərə müraciət edərək onlardan ehtiyatlı olmağı, küləkli havaya görə avtomobillərini aşma, yaxud qopma ehtimalı olan obyektlərin yaxınlığında və ya atında saxlamamağı, xüsusilə qoşqulu, tentli və uzun ölçülü yük avtomobillərinin iştirakı ilə baş verə biləcək qəzaların qarşısının alınması üçün qabaqlayıcı tədbirlər görməyi, dağlıq və dağətəyi zonalarda qarın yağması nəticəsində yolların sürüşkən olacağını nəzərə alaraq, həmin ərazilərdə şinləri qış mövsümünə uyğun olmayan avtomobillərdən mümkün qədər istifadə etməməyi, nəqliyyat vasitələrinin texniki sazlığından əmin olmağı, sürət həddini meteoroloji şəraitə uyğun seçməyi xahiş edir.

Əlverişsiz hava şəraitinin piyadaların hərəkətində də çətinliklər yaradacağını nəzərə alaraq, onlara təhlükəsizlik baxımından məsuliyyətli olmağı, özlərinin və digər hərəkət iştirakçılarının həyat və sağlamlığına təhlükə yaradan davranışlardan çəkinməyi tövsiyə edirik".

# DİQQƏT:

# Ətrafı zibilləyənləri hansı cəza gözləyir?

"Son zamanlar Bakının mərkəzi, eləcə də digər daxili yollarının kənarlarının zibillənməsi halı artıb. Ətraf mühitin qorunulması ilə bağlı dövlət tərəfindən bir sıra tədbirlər görülsə də, təəssüflər olsun ki, bəzi vətəndaşlarımız istər parklarda, istərsə də dənizdə və digər yerlərdə ətrafa tullantılar ataraq, ərazini zibilləyirlər". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.

Onun sözlərinə görə, ölkə ərazisində ətraf mühiti çirkləndirənlərə İnzibati Xətalar Məcəlləsi üzrə cərimələr tətbiq olunur: "Bura küçəni, su hövzələrini, ictimai yerləri zibilləmək, eləcə də ətraf mühitə müxtəlif növ ziyan vurmaq aiddir. Ərazinin zibillənməsi halları ilə bağlı İnzibati Xətalar Məcəlləsinin 266.3-cü (Məişət tullantılarının tutumlardan (urnalardan) kənar yerlərə atılmasına görə) maddəsinin tələbini pozduğuna görə inzibati qaydada protokol tərtib edilir".

Fariz Əkbərov sözlərinə belə davam edib: "Məcəlləyə görə, məişət tullantılarını zibil qutularından kənara atılması hallarına görə 50 manat cərimə nəzərdə tutulub. Qutular qanunla müəyyən edilmiş məsafədən uzaq yerləşdirilibsə, vəzifəli şəxslər 500 manat, hüquqi şəxslərə 1000 manat cərimə edilə bilər.



Zibilin yandırılaraq, atmosferə zərərli maddələrin atılması halında 8500 manatadək cərimə tətbiq edilə bilər. İctimai nəqliyyatdan istifadə zamanı da tullantılarla yanlış davranışa görə cərimələr nəzərdə tutulur.

Magistral yolları zibilləyən sürücülər 40 manat, sərnişinlər isə 30 manat cərimə edilir. Meşələri zibilləndirən və çirkab suları ilə çirkləndirilməsi halında fiziki şəxslər üçün 600-1000 manat, vəzifəli şəxslərə 2000-3000 manat, hüquqi şəxslərə 6000-8000 manat cərimə nəzərdə tutulur".

*Ayşən Vəli*


*Baş redaktor:*
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3600